# QLOBAL İQTİSADİYYAT BÖHRAN ASTANASINDA

Dünya tarixin ən böyük iqtisadi sarsıntılarının astanasındadır. Böhran Asiyaya ağır zərbə vurub, Avropaya yaxınlaşır.

ABŞ və İsrailin İrana qarşı apardığı müharibə bir aydan artıqdır ki, davam edir. ABŞ və İsrail havada və suda üstünlüyə nail ola bilib, lakin bu, İranın İsrailə və Körfəz ölkələrinə hücumlarının qarşısını almır. Artan gərginlik təkcə hərbi sahədə deyil, siyasi və iqtisadi müstəvidə də ciddi təsirlər yaradır. Ekspertlərin gəldiyi qənaət budur ki, əgər Hörmüz boğazı yaxın vaxtda açılmasa, qlobal iqtisadi çöküşün qarşısını almaq mümkün olmayacaq.

SƏHİFƏ 5-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

4 APREL ŞƏNBƏ 2026 № 12 (4263) Qiyməti - 60 qəpik www.kaspi.az



## "TÜRK DÜNYASI BİZİM AİLƏMİZDİR"

"Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik".

SƏHİFƏ 2-də



## VİRTUAL VİTRİNLƏR, REAL İTKİLƏR

Sosial şəbəkələr üzərindən edilən ticarət ciddi risklər yaradır. Qeyri-rəsmi satışlar və nəzarətsiz ödənişlər istehlakçı hüquqlarının müdafiəsini zəiflədir. Mütəxəssislər vətəndaşları diqqətli olmağa çağırırlar.

SƏHİFƏ 8-də



## "DEMOQRAFİK AZALMANI FÜRSƏTƏ ÇEVİRƏ BİLƏRİK"

Qoşqar Məhərrəmov: "Az resursla çox iş görmək keyfiyyəti aşağı salır. Bir müəllimlə 30 nəfərə tədris etmək fikrindən daşınmalı, şagird sayını azaltmalı, bir müəllimlə 15-20 şagirdə dərs vermək istiqamətində addım atmalıyıq".

SƏHİFƏ 9-da



DÖVLƏTİMİZİN, XALQIMIZIN, ORDUMUZUN GÜCÜNÜ GÖSTƏRƏN QƏLƏBƏ

# ZƏFƏR YOLUNUN BAŞLANĞICI

Aprel döyüşləri dünyaya Azərbaycan ali rəhbərliyinin siyasi iradəsini, Ordumuzun gücünü göstərdi. Dörd gün davam edən hərbi əməliyyatlar "məğlubedilməz erməni ordusu" mifini darmadağın etdi.

### APREL DÖYÜŞLƏRİNİN NƏTİCƏLƏRİ

Aprel döyüşləri daha bir əlamətdar hadisə ilə də yadda qaldı. Hərbi əməliyyatlar zamanı Ordumuzun şücaəti sayəsində Tərtərin Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayılın Lələtəpə yüksəkliyi erməni silahlı qüvvələrindən təmizləndi. Bununla da uzun illər düşmən işğalı altında olan Cocuq Mərcanlı kəndi azad edildi. Qısa müddət ərzində kənd yenidən inşa edilərək ayrı düşdüyü sakinlərinə qovuşdu.

### APREL DÖYÜŞLƏRİ GÖSTƏRDİ Kİ...

Dünya Azərbaycan Ordusunun hansı üstünlüklərə, peşəkarlığa, ən əsası isə yüksək döyüş ruhu və vətənpərvərliyə sahib olduğunu əyani şəkildə gördü. Bu reallıq əslində işğala son qoyulacaq günün heç də uzaq olmadığını göstərirdi. Bu baxımdan Aprel döyüşləri Zəfər yolunun başlanğıcı da adlandırılır. Aldıqları sarsıdıcı zərbələrdən dərs çıxarmayan Ermənistan ordusunun və rəhbərliyinin işğal siyasətini davam etdirmək cəhdləri, ardıcıl təxribatlar sonda 44 günlük Vətən müharibəsinin başlanmasına rəvac verdi.

SƏHİFƏ 3-də



## RUSİYA-QƏRB QARŞIDURMASININ YENİ ÜNVANI

Tərəflərdən biri demokratiya adı altında Ermənistanda seçkilər ərəfəsində yaşanan antidemokratik proseslərə göz yumur, digəri isə ikitərəfli görüşün açıq hissəsində erməni baş nazirini aşağılamağa cəhd edir.

SƏHİFƏ 4-də



## TURİZM SEKTORUNDA DƏYİŞİKLİKLƏR OLACAQ

Turizm İnkişaf Fondu sektorun ehtiyac duyduğu maliyyə dəstəyini təmin edə bilər. Fond diqqətçəkən layihələrə qrantlar verməklə xidmətlərin keyfiyyətinin yüksəldilməsinə yol açacaq.

SƏHİFƏ 12-də



## İTALİYA RİVİERASININ İNCİSİ

Beş kəndi birləşdirən Çinkve Terredə avtomobildən istifadə qadağandır. Yaşayış məntəqələri arasında yalnız bərə, qatar və ya mənzərəli cığırlarla piyada səyahət etmək olar. Bölgə üzüm bağları ilə məşhurdur.

SƏHİFƏ 15-də



Sənədsiz evlərin sığorta dərdi SƏHİFƏ 6-da



Tütün sənayesində strateji dəyişikliklər SƏHİFƏ 7-də



Kiberhücumlara qarşı müdafiə gücləndirilir SƏHİFƏ 11-də



Sərnişinlər üçün görünməyən təhlükə SƏHİFƏ 14-də



Bu dəfə sevindirdilər SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## Məsud Pezeşkian İlham Əliyevə zəng edib

İran Prezidenti Məsud Pezeşkian aprelin 2-də Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

Məsud Pezeşkian Azərbaycanın İrana göstərdiyi humanitar yardıma görə dövlət başçısına minnətdarlığını bildirib. Prezident İlham Əliyev Azərbaycanın İrana göstərdiyi humanitar yardımın davam edəcəyini deyib, yaxın zamanlarda növbəti humanitar yardımın göndəriləcəyini vurğulayıb.

İranda vəziyyətin gərginləşməsindən narahatlığını ifadə edən dövlət başçısı həlak olan İran vətəndaşlarına Allahdan rəhmət diləyib.

Prezident İlham Əliyev qarşıdurmanın tez bir zamanda sona çatmasını arzuladığını bildirib. Telefon söhbəti zamanı regionda sülhün tezliklə əldə olunmasının zəruriliyi vurğulanıb.



## 421 nəfər minadan zərər çəkib

"Vətən müharibəsindən sonra 421 nəfər minadan zərər çəkib, onlardan 72-si həlak olub, 349-u ağır yaralanıb". "Report" xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının (PA) xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Beynəlxalq Mina Maarifləndirmə Günü ilə bağlı "X" sosial media hesabında paylaşımında bu barədə bildirib.

O qeyd edib ki, dünya irəliyə doğru addımladığı halda, Azərbaycan hər gün səssiz və görünməz bir təhlükə ilə yaşamağa davam edir: "30 illik işğal dövründə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin təxminən 12 faizi 1,5 milyondan çox mina ilə çirkləndirilib. 2020-ci ildən sonra sülh dövründə 400-dən çox mülki şəxs həlak olub və ya ağır yaralanıb. Mina çirklənməsi Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində yenidənqurma və bərpa işlərinə, həmçinin keçmiş məcburi köçkünlərin təhlükəsiz və rahat şəkildə qayıdışına mane olur. Bunlar sadəcə rəqəmlər deyil. Bunlar yarımçıq qalan həyatların, dağılan ailələrin, oğurlanan gələcəklərin hekayəsidir. Minalardan təmizləmə yalnız texniki proses deyil. Bu, ədalətdir. Bu, insan ləyaqətidir. Bu, insanların öz evlərinə təhlükəsiz qayıtmaq hüququdur".

# "TÜRK DÜNYASI BİZİM AİLƏMİZDİR"

Prezident İlham Əliyev: "Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik".



Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin rəsmiləri növbəti dəfə Azərbaycan paytaxtında bir araya gəldilər. Səfər çərçivəsində nümayəndə heyətini Prezident İlham Əliyev də qəbul edib.

**"BİRGƏ SƏYLƏRİN GÖSTƏRİLMƏSİ TƏBİİ Kİ, ÇOX ÖNƏMLİDİR"**

Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək: "Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir.Xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq".

**"TDT DÜNYA MİQYASINDA BÖYÜK NÜFUZ QAZANIB"**

Dövlət başçısı qeyd edib ki, bu gün TDT dünya miqyasında böyük nüfuz qazanıb və beynəlxalq mövqelərimiz möhkəmlənir: "Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır".

Prezidentin sözlərinə görə, dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil: "Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq".

## "Verdiyiniz dəstək bizim üçün çox önəmlidir"

TDT çərçivəsində iqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə investisiya fondları yaradılıb. Bu fondlar vasitəsilə artıq bir çox layihələr icra edilir: "Xüsusi minnətdarlığı Qarabağın bərpasına qardaş ölkələrin dəstəyinə görə ifadə etmək istərdim. Həm bərpa işlərinə, həm Qarabağda yeni müəssisələrin yaradılması işinə verdiyiniz dəstək bizim üçün çox önəmlidir. Bildiyiniz kimi, artıq Özbəkistan tərəfindən bizə hədiyyə edilmiş Mirzə Uluqbəy məktəbi fəaliyyət göstərir. Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Qırğızıstanın hədiyyəsi olan Manas məktəbi fəaliyyət göstərir. Bunlar Füzuli, Ağdam rayonlarındadır. Türkiyədən olan bir çox şirkətlər önəmli infrastruktur layihələrində - yollar, körpülər, tunellər, dəmir yolları layihələrində iştirak edirlər. Eyni zamanda, Qarabağda iş yerlərinin yaradılması da bizim üçün çox önəmlidir və yenə də burada birinci xarici sərmayə qardaş ölkələrdən gəlib".

## "Orta Dəhliz hər birimizin marağına cavab verir"

Dövlət başçısı bildirib ki, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir: "Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta Dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta Dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır. Yəqin ki, bu gün Azərbaycan tərəfi bu məsələ ilə bağlı məlumat verəcək".

Prezident qeyd edib ki, bu layihələrin uzlaşdırılması, koordinasiyalı şəklində icra edilməsi yeni bir önəmli beynəlxalq dəhliz açacaq.

**HÖKUMƏT BAŞÇILARININ İKİNCİ GÖRÜŞÜ**

Qeyd edək ki, Bakıda TDT-yə üzv dövlətlərin Hökumət başçılarının/ Vitse-prezidentinin ikinci görüşü keçirilib. Tərəflər əməkdaşlığın mövcud durumunu, bu münasibətləri daha da irəliyə aparmaq perspektivlərini müzakirə ediblər. Baş naziri Əli Əsədov bildirib ki, Azərbaycan TDT çərçivəsində əməkdaşlığa daim xüsusi önəm verib, Təşkilata üzv olan bütün dövlətlərlə ikitərəfli müstəvidə strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətləri qurub.



Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz qeyd edib ki, Cənubi Qafqazda sabitlik və əməkdaşlıq mühiti Türk dünyası daxilində qarşılıqlı əlaqəni daha da gücləndirəcək. Sonda görüşün nəticələrinə dair Birgə Bəyanat qəbul edilib.

# ZƏFƏR YOLUNUN BAŞLANĞICI



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

**Aprel döyüşləri dünyaya Azərbaycan ali rəhbərliyinin siyasi iradəsini, Ordumuzun gücünü göstərdi. Dörd gün davam edən hərbi əməliyyatlar "məğlubedilməz erməni ordusu" mifini darmadağın etdi.**

Azərbaycanın hərb tarixində silinməz iz qoyan Aprel döyüşlərindən 10 il keçir. Bir neçə gün davam edən əməliyyatların hərbi-siyasi əhəmiyyəti və sonrakı proseslərə təsiri olduqca böyükdür. Bu əməliyyatlar dünyaya illərlə davam edən nəticəsiz danışıqların işğalçı dövlət və separatçı rejim üçün hansı nəticələr doğuracağının bir siqnalı idi. Prezident İlham Əliyev Aprel döyüşlərini dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbə adlandırıb.

## APREL DÖYÜŞLƏRİNİN NƏTİCƏLƏRİ

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin növbəti təxribatının qarşısını almaq üçün hərbi əməliyyata başlayıb və cavab olaraq uğurlu əks-həmlə əməliyyatı həyata keçirilib. Dörd gün ərzində Azərbaycan Ordusunun bölmələri tərəfindən yerinə yetirilən adekvat cavab tədbirləri nəticəsində düşmən ağır məğlubiyyətə uğrayıb, Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının 2 min hektardan çox ərazisi azad edilib, minlərlə hektar strateji əhəmiyyətli ərazi Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarəti altına keçib.

## APREL DÖYÜŞLƏRİ GÖSTƏRDİ Kİ...

Aprel döyüşlərindən əvvəl Dağlıq Qarabağ probleminin həlli ilə bağlı mövcud mənzərə vasitəçilərin, xüsusilə də ATƏT-in bədnam Minsk Qrupunun əsas qayəsi münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq, Azərbaycanı işğalın nəticələri ilə barışmağa inandırmaqdan ibarət idi. Lakin Prezident İlham Əliyevin timsalında rəsmi Bakı bu işğalla heç zaman barışmayacağını dəfələrlə bəyan edərək bütün gücünü məhz Azərbaycanın istədiyi sonluğa nail olması üçün toparlayırdı. 2016-cı ildə aprel ayında reallaşan dörd günlük hərbi əməliyyatlar Ali Baş Komandan İlham Əliyevin xəbərdarlıqlarının heç də sözdə qalmayacağının isbatı idi. Aprel döyüşləri dünyaya göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri işğal altında olan torpaqları qısa müddətdə azad etmək, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsini təmin etmək iqtidarındadır.

## BÖYÜK QAYIDIŞIN İLK MÜJDƏÇİSİ

Aprel döyüşləri Azərbaycanın ictimai-siyasi həyatında daha bir əlamətdar hadisə ilə də yadda qaldı. Qeyd edək ki, hərbi əməliyyatlar zamanı Silahlı Qüvvələrimizin qəhrəmanlığı və şücaəti sayəsində Tərtərin Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayılın Lələtəpə yüksəkliyi erməni silahlı qüvvələrindən təmizləndi. Bununla da uzun illər düşmən işğalı altında olan Cocuq Mərcanlı kəndi azad edildi. Qısa müddət ərzində Cocuq Mərcanlı yenidən inşa edilərək ayrı düşdüyü sakinlərinə qovuşdu. Bu möhtəşəm dönüş Qarabağa Böyük Qayıdışın ilk müjdəsi idi. Cocuq Mərcanlıya qayıdış milyondan artıq məcburi köçkün həyatı yaşamağa məhkum edilmiş soydaşlarımızın qəlbində doğma yurda qovuşmaq ümidini yenidən alovlandırdı.

## ERMƏNİ MİFİ DARMADAĞIN EDİLDİ

Aprel döyüşlərinin ən mühüm nəticəsi Azərbaycan Ordusunun sarsıdıcı qələbəsi ilə bərabər, işğalçı dövlətdə eyforiya yaradan "keçilməz sədd", "məğlubedilməz erməni ordusu" mifinin darmadağın edilməsi oldu. Dörd gün davam edən hərbi əməliyyatlar istər separatçı rejimi, istərsə də işğalçı dövlətin rəhbərliyini döyüşlərin dayandırılması üçün vasitəçilərə yalvarması ilə yadda qaldı. Bu narahatlıq və qorxu heç də əbəs deyildi. Məhz Silahlı Qüvvələrimizin çox qısa zaman kəsiyində erməni mifinə vurduğu dağıdıcı zərbə onları gözləyən sonun nə olacağını bir daha dünyaya nümayiş etdirdi. Qeyd edək ki, hərbi əməliyyatlar zamanı ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, eləcə də düşmənin 500-dən artıq hərbçisi zərərsizləşdirilib. Bu nəticələr erməni cəmiyyətinə də "məğlubedilməz ordu" mifinin tamamilə reallıqdan uzaq olan uydurma olduğunu göstərdi. Bunun məntiqi nəticəsi olaraq Ermənistanda baş verən siyasi proseslər və etirazlar Koçaryan-Sarqsyan ittifaqının erməni siyasi səhnəsindən silinməsi ilə yekunlaşdı.

Dünya Azərbaycan Ordusunun işğalçı silahlı qüvvələrlə müqayisədə hansı üstünlüklərə, peşəkarlığa, maddi və texniki təminata, ən əsası isə yüksək döyüş ruhu və vətənpərvərliyə sahib olduğunu əyani şəkildə gördü. Bu reallıq əslində işğala son qoyulacaq günün heç də uzaq olmadığını göstərirdi. Məhz bu baxımdan Aprel döyüşləri Zəfər yolunun başlanğıcı da adlandırılır.

## AZƏRBAYCAN QURUR, YARADIR VƏ YAŞADIR

Aldıqları sarsıdıcı zərbələrdən dərs çıxarmayan Ermənistan ordusunun və rəhbərliyinin işğal siyasətini davam etdirmək cəhdləri, ardıcıl təxribatlar sonda 44 günlük Vətən müharibəsinin başlanmasına rəvac verdi. Azərbaycan Silahlı Qüvvələrinin Aprel döyüşləri ilə başlayan Zəfər yolu 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin bir günlük antiterror əməliyyatları ilə məntiqi sonluğuna çatdı. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala son qoydu, sərhədlərimizin bütövlüyü təmin edildi, tarixi ərazilərimizdə separatçı rejimin kökləri qurudruldu. Artıq Aprel döyüşləri nəticəsində sakinlərinə qovuşmuş Cocuq Mərcanlıya köçlə başlayan Böyük Qayıdış işğaldan azad edilmiş bütün ərazilərimizdə uğurla davam etdirilir. Azərbaycan qurur, yaradır və yaşadır.



# RUSİYA-QƏRB QARŞIDURMASININ YENİ ÜNVANI

Ermənistan açıq şəkildə Qərb-Rusiya qarşıdurmasının yeni siyasi arenasıdır. Tərəflərdən biri demokratiya adı altında Ermənistanda seçkilər ərəfəsində yaşanan antidemokratik proseslərə göz yumur, digəri isə ikitərəfli görüşün açıq hissəsində erməni baş nazirini aşağılamağa cəhd edir.

F.ABASOĞLU

Bir müddət sonra Ermənistanda parlament seçkiləri keçiriləcək. Bu seçkilər rəsmi İrəvanın növbəti illərdəki siyasi kursunun hansı mərkəzə doğru istiqamətlənəcəyini böyük ölçüdə həll edəcək. Artıq ölkə daxilində siyasi qüvvələrin kəskin konfrantasiyası müşahidə edilir. Qərbyönümlülərlə rusiyapərəstlərin qarşıdurması kimi də xarakterizə olunan bu proses həm də Ermənistanda Rusiya və Qərbin "soyuq müharibəsi" kimi dəyərləndirilir. Əslində reallıq da belədir. İsti təmaslar, yəni hərbi qarşıdurma meydanı Ukraynadırsa, rəqabətin siyasi ayağı məhz Ermənistanda müşahidə edilir.

### PUTİN-PAŞİNYAN GÖRÜŞÜNÜN PƏRDƏARXASI

Belə bir ərəfədə Ermənistan baş naziri Nikol Paşinyanın Rusiyaya səfəri, Prezident Vladimir Putinlə görüşdə tərəflərin səsləndirdikləri bəyanatlar mövcud mənzərəni açıq şəkildə ortaya qoyur. Seçkilər yaxınlaşdıqca Rusiyanın Ermənistanda fəallığını artıracağı, Paşinyana təzyiqlərin güclənəcəyi gözlənilən idi. Bu təzyiqlər indi Rusiya rəhbərliyi tərəfindən Ermənistan liderinə açıq şəkildə çatdırılır. Məsələn, Vladimir Putin görüşdə bəyan edib ki, Moskva rusiyapərəst qüvvələrin Ermənistanda keçiriləcək seçkilərdə iştirakına şərait yaradılmasını istəyir: "Ermənistanda rusiyapərəst bir çox siyasi qüvvə var. Biz çox istərdik ki, bütün bu siyasi partiyalar və siyasətçilər seçkilər zamanı bu daxili siyasi prosesdə iştirak edə bilsinlər".

Putin xatırladıb ki, Rusiya pasportlarına malik bəzi Ermənistan liderləri həbsdədir.

Paşinyan isə Rusiya pasportu daşıyan şəxslərin deputatlığa və baş nazir postuna namizəd ola bilməyəcəklərini bəyan edib.

Əslində Rusiya Prezidentinin bu açıqlaması Kremlin Ermənistanda hakimiyyət dəyişikliyinə nail olmağa çalışdığını göstərir. Seçkilər nə qədər hər bir ölkənin daxili işi sayılsa da, istər Putinin bəyanatı, istərsə də Qərb dairələrinin açıqlamaları Ermənistanın daxili siyasi həyatına müdaxilə cəhdi kimi dəyərləndirilə bilər.



## KREMLİN İQTİSADİ SANKSİYA XƏBƏRDARLIĞI

Seçkilər ərəfəsində Rusiya-Ermənistan gərginliyi özünü iqtisadi müstəvidə də göstərir. Paşinyan-Putin görüşündə səsləndirilən fikirlər, daha sonra isə Rusiya Baş nazirinin müavini Aleksey Overçukun TASS-a müsahibəsindəki bəyanatları Moskvanın iqtisadi təzyiq rıçaqlarını tam gücü ilə işə saldığını göstərir.

Məsələn, Paşinyanla görüşdə Vladimir Putin Avropada qazın 600 dollar olduğu halda Ermənistana 177 dollara satıldığını xatırladıb.

2024-cü ildə qeydə alınan və ikitərəfli ticarətdə mühüm göstərici sayılan 11 milyard dollarlıq rəqəmin 2025-ci ildə 6,4 milyarda gerilədiyinə eyham vurub. Bunun daha çox Ermənistandan ixrac olunan məhsullara aid olduğunu bildirib. Lakin heç kimə sirr deyil ki, 2024-cü ildəki rekord göstəricinin əsas maliyyə qaynağı sanksiyalardan yan keçməklə aparılan reeksport əməliyyatları idi.

### Aİ, YOXSA AİI?

Görüşdə diqqət çəkən digər bəyanat Ermənistanın Avropa İttifaqı ilə Avrasiya İqtisadi İttifaqı arasında seçim məsələsi ətrafında polemika idi. Əslində bu prosesin yekun nəticəsi İrəvanın gələcək siyasi kursunun hansı istiqamətə yönələcəyini müəyyənləşdirəcək. Bu baxımdan Rusiya Prezidenti Vladimir Putinin "İrəvan eyni vaxtda iki gömrük ittifaqında ola bilməyəcək" bəyanatı Ermənistanın Kreml tərəfindən ciddi iqtisadi sanksiyalara məruz qalacağına dair xəbərdarlıq kimi dəyərləndirilir. Paşinyan isə proseslə bağlı seçim etmək vaxtının çatmadığını söyləyərək bu təzyiqləri neytrallaşdırmağa çalışır. Təbii ki, hər şey Qərbin Ermənistan rəhbərliyinə vədlərinə nə dərəcədə sadiq qalacağından asılı olacaq.

### OVERÇUKUN TƏHDİDLƏRİ

Seçkilər ərəfəsində Rusiyanın Ermənistana təhdidləri Putin-Paşinyan görüşündəki bəyanatlarla yekunlaşmayıb. Oxşar mövqeni Rusiya Baş nazirinin müavini Aleksey Overçuk TASS-a müsahibəsində də ortaya qoyulub. Overçuk Ermənistandan olan iş adamlarının Rusiyadakı fəaliyyətinə sanksiyalar tətbiq oluna biləcəyinin anonsunu verib. O qeyd edib ki, Rusiya şirkətlərinin Ermənistanda mövcudluğunun arzuolunmazlığı barədə söhbətlər bu ölkənin biznesinin Rusiyadakı fəaliyyətinə dair məsələni gündəmə gətirəcək: "Qarşılıqlılıq prinsipindən çıxış edərək soruşmaq ədalətli olar - "əgər Rusiya şirkətləri və sahibkarları Ermənistanda fəaliyyət göstərə və qazana bilmirlərsə, onda niyə Ermənistan şirkətləri və sahibkarları Rusiyada fəaliyyət göstərə və pul qazana bilərlər?"

## ÜSLUBLAR FƏRQLİ OLSA DA, MƏQSƏD BİRDİR

Göründüyü kimi, Ermənistan açıq şəkildə Qərb-Rusiya qarşıdurmasının yeni siyasi arenasıdır. Tərəflərdən biri demokratiya adı altında Ermənistanda seçkilər ərəfəsində yaşanan antidemokratik proseslərə göz yumur, digəri isə ikitərəfli görüşün açıq hissəsində erməni baş nazirini aşağılamağa cəhd edir. Üslublar və yanaşmalar fərqli olsa da, məqsəd birdir: Ermənistanı təsir dairəsində saxlamaq. Bu mübarizədə kimin ön plana çıxacağı artıq zaman məsələsidir.

### BAKI PROSESLƏRİ DİQQƏTLƏ İZLƏYİR

Azərbaycana gəldikdə isə, rəsmi Bakı prosesləri diqqətlə izləyir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən müstəqil siyasət və bütün güc mərkəzləri ilə qurulmuş bərabər səviyyəli əməkdaşlıq platformaları Azərbaycanın əlini gücləndirən amildir. Proseslərin hansı istiqamətdə inkişaf edəcəyindən asılı olmayaraq, rəsmi Bakının iqtisadi, siyasi, diplomatik və hərbi üstünlükləri ona geniş müstəvidə hərəkətlilik imkanları yaradır. Bu isə o deməkdir ki, Azərbaycan Ermənistandakı seçkilərin nəticələrindən və Rusiya-Qərb qarşıdurmasının sonluğundan asılı olmayaraq, özünün milli maraqlarına uyğun yürütdüyü siyasəti davam etdirəcək.

# QLOBAL İQTİSADİYYAT BÖHRAN ASTANASINDA

Dünya tarixin ən böyük iqtisadi sarsıntılarının astanasındadır və böhran Asiyaya ağır zərbə vurub, Avropaya yaxınlaşır. Ekspertlərin gəldiyi qənaət budur ki, əgər Hörmüz boğazı yaxın vaxtda açılmasa, qlobal çöküşün qarşısını almaq mümkün olmayacaq.



AZƏR NURİYEV



ABŞ və İsrailin İrana qarşı apardığı müharibə bir aydan artıqdır ki, davam edir. ABŞ və İsrail havada və suda üstünlüyə nail ola bilib, lakin bu, İran raketlərinin və dronlarının İsrail şəhərlərinə və Körfəz ölkələrinə davam edən hücumların qarşısını almır. Regionda artan gərginlik təkcə hərbi sahədə deyil, siyasi və iqtisadi müstəvidə də ciddi təsirlər yaradır.

**BU, YALNIZ BAŞLANĞICDIR**

"Bloomberg" yazır ki, dünya tarixin ən böyük iqtisadi sarsıntılarının astanasındadır və böhran Asiyaya ağır zərbə vurub, Avropaya yaxınlaşır. Ekspertlərin gəldiyi qənaət budur ki, əgər Hörmüz boğazı yaxın vaxtda açılmasa, qlobal iqtisadi çöküşün qarşısını almaq mümkün olmayacaq. ABŞ Prezidenti Donald Tramp isə Hörmüz boğazının tezliklə açılacağını və İranın artıq məğlub edildiyini bəyan edib: "Mövqeyim belədir ki, mən bu ölkəni darmadağın etmişəm. Onların artıq gücü qalmayıb, qoy bu boğazdan istifadə edən ölkələr gedib onu özləri açsın".

Lakin istənilən halda neft tədarükü sahəsində tarixin ən böyük sarsıntıları artıq bir aydır ki, davam edir. Qiymətlər sürətlə yüksəlir, çatışmazlıq isə Tailanddan Pakistana qədər bütün Asiyada hiss olunur. Enerji sektoru xəbərdarlıq edir ki, bu, yalnız başlanğıcdır. "Bu yaxınlarda təxminən 40 qaz treyderi, şirkət rəhbəri, broker, yükdaşıyıcı və məsləhətçi ilə aparılan söhbətlərdə dəfələrlə eyni fikir səslənib: dünya hələ vəziyyətin ciddiliyini tam dərk etməyib", - "Bloomberg" yazıb.

## NEFTİN QİYMƏTİ 200 DOLLARA KİMİ ARTA BİLƏR

İranın inadkarlıqla boğazı bağlı saxlaması Avropa və Amerikada böyük narahatlıqla qarşılanır. Yanacağın qiymətinin artması ABŞ-da insanların etirazına səbəb olub, Fransa və İtaliyada kütləvi aksiyalar keçirilir. "Goldman Sachs" və "Barclays" kimi iri investisiya banklarının analitikləri hesab edirlər ki, neftin 1 barelinin qiymətinin 130 və 140 dollara çatması dünya iqtisadiyyatı üçün problemlər yaradır. Neftin nəqlindəki problem davam etsə, vəziyyət daha da çətinləşəcək. "Oxford Economics" təhlilçiləri bildiriblər ki, boğaz daha üç həftə bağlı qalsa, neftin qiyməti 200 dollara kimi arta bilər. Nəzərə çatdırılıb ki, 1973-cü ildə Ərəbistan neftinə tətbiq edilən sanksiyalar nəticəsində istehlak mallarının qiyməti 4 dəfə artıb. 1979-cu ildə isə İrandakı inqilabdan sonra tətbiq edilən sanksiyalar nəticəsində istehlak mallarının qiyməti 150 faiz artıb.



Təcrübə göstərir ki, dünya bazarına neftin nəql olunmasında problemlər nəticəsində bütün malların qiyməti artır və inflyasiya baş verir.

**İRANLA MÜHARİBƏDƏN UDAN VƏ UDUZANLAR**

Amma bu müharibədən qazananlar da var. Bəs onlar kimlərdir? Qazananlar sırasında daha çox Norveç, Kanada və Rusiyanı göstərmək olar. Faktiki blokada və enerji infrastrukturuna hücumlar Qətər və Səudiyyə Ərəbistanı kimi ölkələrə ciddi zərbə vurub. Nəticədə alıcılar alternativ mənbələr axtarır və bu durumda Norveç və Kanada kimi ölkələr qazanır. Kanadanın energetika naziri Tim Hodscon öz ölkəsini "sabit, etibarlı, proqnozlaşdırıla bilən, dəyərlərə əsaslanan enerji istehsalçısı" kimi təqdim edib. Lakin Kanadanın da neft hasilatını nə dərəcədə artıra biləcəyi barədə suallar qalır.

## ABŞ QAZANIR, YA İTİRİR?

Prezident Donald Tramp iddia edir ki, neft qiymətlərinin artması ilə ABŞ "çoxlu pul qazanır". Həqiqətən, Amerika neft şirkətləri bu il neft qiymətləri cari səviyyədə qalarsa, milyardlarla dollar əlavə gəlir əldə edə bilər. Lakin bu, tam da istənilən nəticə deyil. Bəzi şirkətlərin işinə Yaxın Şərqdəki istehsal fasilələri təsir edir. Məsələn, "ExxonMobil" Qətərin ən böyük sənaye mərkəzlərindən biri olan Ras-Laffanda fəaliyyət göstərir. Orada istehsal martın əvvəlindən dayandırılıb, bu yaxınlarda isə obyekt İranın raket zərbələrinə məruz qalıb ki, bu da "əhəmiyyətli dağıntılara" səbəb olub. İkincisi, topdansatış qiymətlərinin düşməsi fonunda güclər illərdir azaldılırdı və indi bir çox şist nefti istehsalçıları hasilatı tez artıra bilmir. Adambaşına hesablandıqda amerikalılar dünyanın ən böyük neft və qaz istehlakçılarıdır. "Oxford Economics" iqtisadçıları xəbərdarlıq edirlər ki, əgər neftin bir bareli 140 dollara yüksəlsə, ABŞ iqtisadiyyatında daralma başlaya bilər. Təbii ki, bu baxımdan yalnız amerikalılar narahat deyillər. Avropa istehlakçıları, xüsusilə Böyük Britaniya sakinləri, idxal olunan qazdan asılıdır və bu, iqtisadi artım üçün yüksək risk deməkdir.

**BORC BÖHRANI VƏ İNFLYASİYA**

Təbii ki, ən böyük birbaşa təhlükə Hörmüz boğazından şərqə doğru göndərilən neft və mayeləşdirilmiş qazın ənənəvi alıcıları üçün yaranıb. Asiya Yaxın Şərqdən gələn neftin 59%-ni alır. Cənubi Koreyada bu göstərici 70%-dir. Hadisələrin dəqiq necə inkişaf edəcəyi, təbii ki, münaqişənin bundan sonrakı gedişindən asılıdır. Əgər müharibə uzanarsa, təkcə ayrı-ayrı ölkələrin deyil, bütün dünya iqtisadiyyatının zərər görə biləcəyi riski yüksəkdir. Gələcək sarsıntılara gəldikdə, borc böhranı və inflyasiya ilk yerdə göstərilir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# SƏNƏDSİZ EVLƏRİN SIĞORTA DƏRDİ

SEVİNC ABBASOVA

**Güclü yağışlardan sonra Bakıda və Abşeronda, eləcə də regionlarda yüzlərlə ev ziyan çəkdi. İndi isə dəyən zərərin kimin tərəfindən qarşılanmalı olduğu məsələsi aktuallaşıb. Bu problemlə bağlı fikirlər birmənalı deyil.**



Son zamanlar Azərbaycanda müşahidə olunan intensiv yağışlar ciddi fəsadlara yol açaraq bir çox yaşayış massivlərində mövcud problemləri daha qabarıq şəkildə üzə çıxardı. Problemin ən ağrılı tərəfi isə zərərin kim tərəfindən qarşılanması məsələsidir. Hazırda Azərbaycanda daşınmaz əmlakın sığortalanması geniş yayılmayıb. Əksər vətəndaşlar evlərini sığorta etdirmir. Nəticədə, sel və ya su basması zamanı zərər birbaşa ailənin üzərinə düşür. Dövlət qurumları isə yalnız müəyyən hallarda və məhdud imkanlar daxilində yardım göstərə bilir ki, bu da problemin köklü həlli üçün yetərli deyil.

### "XÜSUSİ KOMİSSİYANIN YARADILMASINA EHTİYAC VAR"

Daşınmaz əmlak bazarı üzrə ekspert Nofəl Quliyev intensiv yağışların yaratdığı fəsadların xüsusilə fərdi yaşayış evlərində müşahidə edildiyini bildirir. Onun sözlərinə görə, həmin evlərin əksəriyyəti vaxtilə bataqlıq və ya sututar ərazilərdə torpaq doldurulmaqla inşa edilib. Ekspert qeyd edir ki, bu ərazilərdə ümumi kanalizasiya sistemi mövcud deyil, nəticədə güclü yağıntılar zamanı suyun təbii axını təmin olunmur və evlər birbaşa risk altında qalır. Bu baxımdan o hesab edir ki, yaranmış zərərlə bağlı dövlət tərəfindən müəyyən dəstək mexanizmləri tətbiq olunmalı, vətəndaşlara kompensasiya ödənilməlidir. Onun fikrincə, hətta sığortası olmayan evlər üzrə humanitar və sosial yanaşma əsasında yardım mexanizmləri işə salınmalıdır.

Ekspert vurğulayır ki, Azərbaycanda sığorta mədəniyyətinin zəif olması problemi daha da dərinləşdirir: "Vətəndaşlar adətən yalnız hadisə baş verdikdən sonra sığorta barədə düşünürlər ki, bu da preventiv risk idarəetməsini zəiflədir. Belə halların obyektiv və şəffaf şəkildə qiymətləndirilməsi üçün xüsusi komissiyanın yaradılmasına ehtiyac var. Bu komissiya dəymiş ziyanı yerində qiymətləndirməli və müvafiq qaydada vətəndaşlara kompensasiya ödənilməsini təmin etməlidir".

### 800 MİNDƏN ÇOX TİKİLİ RİSK ALTINDADIR

N.Quliyev sənədsiz evlərin yaratdığı əlavə çətinliklərə diqqət çəkir. Onun fikrincə, uzun illərdir faktiki yaşayış olan, lakin hüquqi sənədləri olmayan evlər sığorta şirkətləri üçün yüksək risk kateqoriyasına düşür və bu səbəbdən sığortalanmada çətinliklər yaranır. Hazırda ölkədə 800 minə yaxın çıxarışsız mənzilin mövcudluğu bu problemin miqyasını daha aydın göstərir. Ekspert hesab edir ki, bu evlərin köçürülməsi deyil, mərhələli şəkildə sənədləşdirilməsi daha doğru yanaşmadır.



Nofəl Quliyev

## SIĞORTA MEXANİZMİ NİYƏ İŞLƏMİR?

Sığorta məsələləri üzrə ekspert Ramil Kərimov deyir ki, daşınmaz əmlakın icbari sığortasının əsas məqsədi dövlətin müəyyən sahələrdə yaranan riskləri nəzərə alaraq vətəndaşların əlavə sosial yük altına düşməsinin qarşısını almaq üçün preventiv mexanizm formalaşdırmaqdır.

Ekspert vurğulayır ki, Azərbaycanda daşınmaz əmlakın icbari sığortası ilə bağlı hüquqi baza 1990-cı illərdən formalaşıb, daha sonra təkmilləşdirilərək 2011-ci ildən etibarən müasir mexanizm tətbiq olunmağa başlanıb: "İcbari sığortalar haqqında" qanuna əsasən ölkə üzrə tariflər regionlara görə fərqlənir. Bakı şəhərində illik sığorta haqqı 50 manat təşkil edir və bu məbləğ müqabilində 25 000 manatadək sığorta təminatı verilir. Sumqayıt, Gəncə və Naxçıvan Muxtar Respublikasında sığorta haqqı 40 manat, təminat isə 20 000 manatdır. Digər bölgələrdə isə sığorta haqqı 30 manat olmaqla 15 000 manat təminat nəzərdə tutulur. Yəni, cəmi 30-50 manat illik ödəniş etməklə vətəndaş ciddi maliyyə itkilərindən qoruna bilər".

R.Kərimovun fikrincə, icbari sığorta mexanizminin effektiv işləməməsinin əsas səbəblərindən biri yerli icra strukturlarının bu prosesi tam şəkildə icra etməməsidir: "Dövlət bu mexanizmin icrasını yerli icra hakimiyyətlərinin üzərinə qoyub və onların vasitəsilə əhatə dairəsinin genişləndirilməsini nəzərdə tutub. Qanunvericiliyə əsasən, sığortadan imtina edən və ya sığortalanmayan əmlaklar inzibati qaydada cərimələnə bilər. Hazırda nəzərdə tutulan cərimə məbləği 30 manatdır. Bu isə praktik baxımdan vətəndaş üçün sığortalanmaqla müqayisədə alternativ seçim yaradır və stimullaşdırıcı rol oynaya bilər. Lakin mexanizmin geniş tətbiq olunmaması nəticəsində bu sahədə boşluqlar qalır və problem sistemli xarakter alır".

## Sistemli kompensasiya ödənişinə mane olan səbəb

Ekspert yerli icra hakimiyyətlərinin əsasnaməsində fövqəladə hallarda yardım göstərilməsi ilə bağlı müddəaların mövcud olduğunu, lakin bu müddəaların icra mexanizminin konkret şəkildə müəyyən edilmədiyini qeyd edir. Onun sözlərinə görə, yardımın həcmi, forması və tətbiq qaydaları aydın olmadığından, kütləvi hallarda sistemli kompensasiya alınması çətin olur. Bu səbəbdən belə hallar daha çox fərdi yanaşma ilə, konkret evlərin yararsız hala düşməsi kimi hallarda məhdud şəklində qarşılanır.

R.Kərimov vurğulayır ki, intensiv yağışlar nəticəsində yaranan mövcud vəziyyət fövqəladə hal kimi qiymətləndirilməsə də, genişmiqyaslı sosial problem xarakteri daşıyır və əsas səbəblərdən biri kommunal infrastrukturun zəifliyidir. Bu baxımdan, gələcəkdə yerli icra hakimiyyətləri icbari sığorta mexanizminin tətbiqini daha aktiv şəkildə həyata keçirməli və əhatə dairəsini genişləndirməlidir.

### SIĞORTA ŞİRKƏTLƏRİNİN "KUPÇA" BƏHANƏSİ

Ekspert sığorta şirkətlərinin mövqeyinə də toxunaraq bildirir ki, praktikada bəzən "çıxarışı" olmayan əmlakların sığortalanmasında çətinliklər yaranır. Lakin qanunvericiliyə əsasən, sığorta şirkətləri müqavilə bağlamaqdan imtina edə bilməzlər. Vətəndaş faktiki olaraq həmin əmlakda yaşayırsa və kommunal xidmətlər onun adına rəsmiləşdirilibsə, bu, sığorta üçün əsas sayılmalıdır. Bu prosesə nəzarət isə Mərkəzi Bank tərəfindən həyata keçirilir.



Ramil Kərimov

# TÜTÜN SƏNAYESİNDƏ STRATEJİ DƏYİŞİKLİKLƏR

**Azərbaycanda siqaret istehsalı sürətlə artır. Ekspertlər artımı regional bazarlardakı dəyişikliklər, ixrac strategiyası və istehsalçıların investisiya qərarları ilə izah edirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Azərbaycanda tütün sənayesində son aylarda diqqətçəkən dinamika müşahidə olunur. Rəsmi statistika ölkədə siqaret istehsalının əhəmiyyətli dərəcədə artdığını göstərir. Belə ki, bu ilin yanvar-fevral aylarında Azərbaycanda 2 milyard 553,7 milyon ədəd siqaret istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 26 faiz çoxdur. Sənaye müəssisələrinin anbarlarında 1 milyard 190 milyon ədəd hazır məhsul ehtiyatının formalaşması da diqqət çəkir. Bu statistika yerli istehsalın artmasının arxasında hansı amillərin dayandığı sualını gündəmə gətirir.

### "TÜTÜN FABRİKLƏRİNƏ YENİ İNVESTİSİYALAR QOYULUB"

İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert Eyyub Kərimlinin sözlərinə görə, bu artımın arxasında bir neçə paralel amil dayanır: "Bu prosesə təsir edən əsas amillərdən biri regional bazarlarda yaranmış mürəkkəb vəziyyətdir. Xüsusilə Rusiya, Mərkəzi Asiya və Şərqi Avropa bazarlarında son illər logistika problemləri, geosiyasi gərginlik və sanksiyaların təsiri özünü göstərir. Bu amillər həmin bazarlarda istehsal və tədarük zəncirlərində müəyyən çətinliklər yaradıb. Belə bir şəraitdə Azərbaycan müəyyən mənada alternativ istehsal və təchizat mərkəzi kimi ön plana çıxmağa başlayıb. Ölkəmiz yaranmış vəziyyətdən iqtisadi baxımdan səmərəli şəkildə istifadə etməyə çalışır və bəzi hallarda bunu uğurla bacarır".

### BƏZİ HALLARDA XARİCDƏN İDXAL OLUNUR

E.Kərimlinin fikrincə, son illərdə tütün sənayesində də müəyyən dəyişikliklər baş verib: "Bir sıra tütün fabriklərinə yeni investisiyalar qoyulub, istehsal sahələrində texnoloji modernizasiya həyata keçirilib. Müasir avadanlıqların tətbiqi istehsal prosesinin səmərəliliyini artırmaqla yanaşı, məhsulun maya dəyərinin də nisbətən aşağı səviyyədə saxlanmasına imkan yaradır. Bundan əlavə, Azərbaycanda siqaret qiymətlərinin bəzi ölkələrlə müqayisədə daha aşağı olması yerli məhsulların xarici bazarlarda rəqabət qabiliyyətini artırır. Bu isə ixrac imkanlarının genişlənməsinə şərait yaradır. Burada re-eksport amilini də xüsusi qeyd etmək lazımdır. Belə ki, bəzi hallarda tütün xammalı xaricdən idxal olunur, ölkə daxilində emal edilərək siqaret istehsal edilir və daha sonra üçüncü ölkələrin bazarlarına ixrac olunur. Bu model istehsalın və ixracın artmasına müəyyən töhfə verir".

**SİQARET İSTEHSALI**
**2025-ci il YANVAR-FEVRAL**
**2 milyard 553,7 milyon ədəd**
**ANBARLARDA EHTİYAT**
**1 milyard 190 milyon ədəd**



## "Məhsulun bir hissəsi hələ bazara çıxarılmayıb"

İqtisadçı bildirdi ki, statistik göstəricilərə diqqət yetirdikdə ölkədə istehsal həcminin artmasının anbar ehtiyatlarının da yüksəlməsi ilə müşayiət olunduğu görünür: "Bu isə o deməkdir ki, istehsal olunan məhsulun bir hissəsi hələ bazara çıxarılmayıb. Anbar qalıqlarının artması müəyyən mənada istehsalın idxalı əvəz etməsi ilə də bağlıdır. Başqa sözlə, daxili bazarda yerli istehsalın payı artdıqca xarici məhsulların bazardakı mövqeyi zəifləyir və idxalın payı azalır. Bu prosesə təsir edən digər amil aksiz siyasətidir. Son illərdə tütün və tütün məhsullarına tətbiq edilən aksiz vergilərində müəyyən dəyişikliklər baş verib. Eyni zamanda, bəzi hallarda tütün xammalının idxalı ilə bağlı tənzimləmələr də istehsal prosesinə təsir göstərir. Müxtəlif anti-tütün kampaniyalarının aparılması və bəzi hallarda siqaret qiymətlərinin artırılması kimi amillər də bazarın strukturuna təsir edən faktorlar sırasındadır".

## İstehsalın ixrac yönümlü transformasiyası

E.Kərimli qeyd etdi ki, hazırda regional bazarlarda mövcud olan problemlər, xüsusilə müharibələr, sanksiyalar və logistika çətinlikləri Azərbaycan üçün müəyyən iqtisadi imkanlar yaradır: "Lakin gələcəkdə bu amillərin aradan qalxması və ya zəifləməsi digər ölkələrin də istehsal və ixrac imkanlarını artırmasına səbəb ola bilər. Bundan əlavə, qlobal tendensiyalar göstərir ki, bir çox ölkədə tütün məhsullarının istehlakı tədricən azalır. Yekun olaraq demək olar ki, Azərbaycanda siqaret istehsalının artması daha çox daxili istehlakın genişlənməsi ilə deyil, istehsalın ixrac yönümlü transformasiyası ilə əlaqəlidir. Bu isə qeyri-neft sektorunun inkişafı baxımından müsbət nəticələr doğura bilər".

### ALTERNATİV KAPİTAL YATIRIMI

İqtisad elmləri üzrə fəlsəfə doktoru, iqtisadçı-ekspert Günay Hüseynova isə düşünür ki, istehsalın artması, əsasən, istehsalçıların seçdiyi strategiya ilə bağlıdır: "Aksiz vergilərində edilən dəyişikliklər, ixrac imkanlarının genişləndirilməsi, eləcə də müəssisələrin anbar ehtiyatlarını artırmaq siyasəti istehsala təsir edən əsas amillərdir. Bundan əlavə, alternativ sahələrdə yerləşdirilə biləcək kapitalın tütün məhsullarının istehsalına yönəldilməsi də bu prosesə təsir göstərir. Siqaret elə məhsul kateqoriyasına daxildir ki, onun qiymətinin tələbə təsiri nisbətən zəifdir. Yəni qiymətin artması və ya azalması istehlak səviyyəsinə ciddi təsir göstərmir. Eyni zamanda istehsalın artması da daxili bazarda məhsulun ucuzlaşmasına səbəb olmur. Bu xüsusiyyət siqaret bazarını digər istehlak məhsullarından müəyyən mənada fərqləndirir".

G.Hüseynovanın sözlərinə görə, idxalın bazardakı payının azalması da müşahidə edilir. Bu isə yerli istehsalın xarici məhsulları müəyyən qədər bazardan sıxışdırdığını göstərir. Başqa sözlə, daxili bazarda yerli məhsulların mövqeyi nisbətən güclənir: "İxrac yönümlü istehsal strategiyasına gəldikdə isə, bu artımın konkret olaraq müəyyən ölkələrin bazarına yönəlmiş istehsal siyasəti ilə əlaqəli olması ehtimal edilir".



Günay Hüseynova

# VİRTUAL VİTRİNLƏR, REAL İTKİLƏR

Sosial şəbəkələr üzərindən edilən ticarət ciddi risklər yaradır. Xüsusilə qeyri-rəsmi satışlar və nəzarətsiz ödənişlər istehlakçı hüquqlarının müdafiəsini zəiflədir. Mütəxəssislər vətəndaşları diqqətli olmağa çağırırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Rəqəmsallaşan dünyada onlayn alış-veriş həyatımızın ayrılmaz bir hissəsinə, sosial şəbəkələr isə nəhəng virtual vitrinlərə çevrilib. Lakin sosial şəbəkələrdə bir kliklə edilən bu cəlbedici sifarişlər heç də həmişə təhlükəsiz sonluqla bitmir. Xüsusilə hüquqi statusu və əlaqə məlumatları olmayan sosial şəbəkə hesabları üzərindən, "kartdan-karta" köçürmə yolu ilə edilən alış-verişlər kiberdələduzluq və istehlakçı hüquqlarının pozulması riskini kəskin şəkildə artırır. Məsələnin aktuallığı və ciddiliyi yaxın günlərdə Bakıda keçirilən "Müasir rəqəmsal dünyada istehlakçılar: elektron ticarət, rəqəmsal xidmətlər və təhlükəsizlik məsələləri" mövzusunda forumda da xüsusi diqqət mərkəzində olub. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin İstehlak bazarına nəzarət şöbəsinin müdiri Yusif Tapdıqlı çıxışı zamanı mühüm bir problemə toxunub: qeyri-rəsmi səhifələrin arxasındakı şəxslər hüquqi cəhətdən "sahibkar" kimi tanınmadığı üçün, aldadılan vətəndaşların hüquqlarını qorumaq və şikayətləri təmin etmək ciddi çətinliklər yaradır. Agentlik rəsmisi vətəndaşları rəsmi satış kanallarına üstünlük verməyə və satıcının hüquqi statusunu mütləq yoxlamağa çağırır. Bəs mövcud rəqəmsal xaosda istehlakçılar fırıldaqçıların qurbanına çevrilməmək üçün nələrə diqqət etməlidirlər?

### "DAVAMLI OLARAQ MONİTORİNQ VƏ ARAŞDIRMALAR APARILIR"

Elektron Təhlükəsizlik Xidmətinin (ETX) mətbuat katibi Elnarə Baxış bildirir ki, son illərdə rəqəmsal texnologiyaların sürətli inkişafı ilə yanaşı, fərdi məlumatların toplanması və işlənməsi miqyası da əhəmiyyətli dərəcədə böyüyüb: "Fərdi məlumatların razılıq olmadan üçüncü tərəflərə ötürülməsi və məlumat təhlükəsizliyinin təmin olunmaması hallarına tez-tez rast gəlinir".

Mətbuat katibi kiberdələduzluq hallarının təhlükəli tərəflərinə də xüsusi diqqət çəkib: "Kiberdələduzlar vətəndaşların fərdi məlumatlarını, xüsusən də bank kartı göstəricilərini ələ keçirmək məqsədilə SMS, zəng və ya saxta e-poçtlar vasitəsilə yalan məlumatlar yayırlar. Həmçinin saxta satış elanları, cəlbedici endirim və ya kampaniya adları altında istifadəçilərə aldadıcı təkliflər göndərilir. Bunun nəticəsində vətəndaşın fərdi məlumatlarının üçüncü şəxslərin əlinə keçməsi riski yaranır ki, bu da son nəticədə ciddi maliyyə itkisinə səbəb olur".




## "Rəsmi mənbələr vasitəsilə yoxlamalıdırlar"

Kibertəhlükələrdən qorunmaq üçün ETX vətəndaşlara vacib qaydalara əməl etməyi tövsiyə edir. Qurum rəsmisi vurğulayır ki, tanımadıqları mənbələrdən göndərilən mesajlardakı linklərə daxil olmaq, bank kartı və digər məlumatları şübhəli keçidlər vasitəsilə qarşı tərəfə ötürmək yolverilməzdir: "Vətəndaşlar daxil olan kampaniya və uduş bildirişlərinin doğruluğunu mütləq həmin şirkətin rəsmi mənbələri vasitəsilə yoxlamalıdırlar".



Turan Abdullazadə

Elvin Abbasov

**Foto:** Sabir Məmmədov/Global Photostock

## "Xəyali məhsul, saxta butik"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası İdarə Heyətinin sədri Elvin Abbasov bildirir ki, nəzarətsiz ticarətin ən təhlükəli tərəfi istehlakçının hüquqi müdafiədən məhrum qalmasıdır. Rəsmi qeydiyyatı olmayan şəxslərdən "kartdan-karta" köçürmə yolu ilə mal alarkən pulun geri alınması qanunvericiliklə tənzimlənə bilmir: "Belə ödənişlər hüquqi baxımdan sadəcə bir fərdə hədiyyə göndərmək kimi qəbul olunur. Platformalarda ən yayılmış dələduzluq üsulları "xəyali məhsul" və "keyfiyyətsiz təqlid" metodlarıdır. Xüsusilə "saxta butik" modeli vasitəsilə brend məhsulların fotoları paylaşılır, ödəniş alındıqdan sonra isə səhifə alıcını bloklayır. Digər təhlükə kuryer xidməti adı altında saxta ödəniş linklərinin ("phishing") göndərilməsidir. Bu yolla vətəndaşların kart məlumatları ələ keçirilir. Nəticədə təkcə alış-veriş məbləği deyil, kartdakı bütün vəsait təhlükə altına düşür". Sədr vurğulayır ki, istehlakçılar bir səhifənin saxta olub-olmadığını anlamaq üçün bəzi detallara diqqət yetirməlidirlər: "Səhifənin yeni yaradılması, rəylərin bağlı olması, izləyici sayının çox, lakin aktivliyin "bot" proqramlarla idarə olunması ciddi şübhə doğurmalıdır. Əgər satıcı "İnfo" bölməsində VÖEN və rəsmi əlaqə vasitələri təqdim etmirsə, bu səhifələrdən uzaq durmaq lazımdır. Təhlükəsiz alış-veriş üçün qızıl qayda mümkün qədər "qapıda ödəniş" üsuluna və "3D Secure" sistemi aktiv olan rəsmi veb-saytlara üstünlük verməkdir. Onlayn ticarət üçün ən effektiv texniki addım bank tətbiqi vasitəsilə ayrıca bir "virtual kart" açmaq və ora yalnız alış-veriş məbləği qədər pul yükləməkdir".

### "NAMƏLUM ÖDƏNİŞLƏR HÜQUQİ SÜBUTLARI MƏHV EDİR"

Vəkil Turan Abdullazadə bildirir ki, sosial şəbəkələr üzərindən edilən alış-veriş geniş yayılsa da, bu sahədə istehlakçı hüquqlarının qorunması mexanizmləri ənənəvi elektron ticarətlə müqayisədə xeyli zəifdir: "Xüsusilə "kartdan-karta" köçürmə yolu ilə edilən nağdsız ödənişlər ciddi risklər yaradır. Belə hallarda satıcının hüquqi statusu qeyri-müəyyən olaraq qalır, kassa qəbzi və müqavilə olmadığı üçün gələcəkdə aldadılma faktını sübut etmək çətinləşir".

Bütün bunlara baxmayaraq, əgər satıcı hüquqi şəxs deyilsə belə, istehlakçı öz hüquqlarını müdafiə edə bilər. Hüquqşünasın sözlərinə görə, ilk növbədə sübutlar toplanmalıdır: "Zərərçəkmiş şəxs yazışmaların skrinşotları, elan şəkilləri, ödəniş qəbzi və ya bank çıxarışını əldə edərək müvafiq qurumlara müraciət etməlidir. Məsələyə iki hüquqi müstəvidə yanaşıla bilər. Əgər satıcı əvvəlcədən aldatmaq niyyəti ilə pulu mənimsəyibsə, bu, dələduzluq kimi qiymətləndirilir. Bu halda dərhal polisə ərizə verilməli və təhqiqat aparılmalıdır. Yox, əgər baş verən hadisə verilən öhdəliyin yerinə yetirilməməsidirsə, məhkəmədə mülki iddia qaldırmaq mümkündür".

# "DEMOQRAFİK AZALMANI FÜRSƏTƏ ÇEVİRƏ BİLƏRİK"

## Qoşqar Məhərrəmov: "Az resursla çox iş görmək keyfiyyəti aşağı salır. Bir müəllimlə 30 nəfərə tədris etmək fikrindən daşınmalı, şagird sayını azaltmalı, bir müəllimlə 15-20 şagirdə dərs vermək istiqamətində addım atmalıyıq".

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Son bir neçə il ərzində Azərbaycanda əhalinin artım tempində azalmanın müşahidə olunması Milli Məclisdə də gündəmə gəlib. Milli Məclis sədrinin müavini Əli Əhmədov bununla əlaqədar yaxın gələcəkdə məktəblərdə oxuyan uşaqların sayının əhəmiyyətli dərəcədə azalacağını qeyd edib. Belə ki, 2015-ci ildə Azərbaycanda 160 mindən çox uşaq doğulduğu halda, 2025-ci ildə bu göstərici 100 minin altında olub: "Bu isə o deməkdir ki, növbəti dövrlərdə məktəblərimizdə oxuyanların sayı əhəmiyyətli dərəcədə azalacaq və bu vəziyyət 50 minə yaxın müəllimin ixtisarı riskini yarada bilər".

Maraqlıdır, təhsil sistemimiz yaxın gələcəkdə demoqrafik azalma səbəbindən mütəxəssis artıqlığı ilə üzləşərsə, problemdən çıxış yolu necə tapılacaq?

Hazırda ABŞ-də çalışan təhsil eksperti Qoşqar Məhərrəmovla müsahibəmizdə bu problemin həlli yollarına nəzər salmağa çalışdıq.

### "ƏGƏR ŞAGİRD SAYI DÜZƏLMİRSƏ..."

**Qoşqar müəllim, statistika ölkəmizdə demoqrafik azalmanı göstərir. Məsələn, 2024–2025 tədris ilində 132 261, 2025–2026 tədris ilində 130 000 uşaq 1-ci sinfə gedib.**

Demoqrafik azalma baş verdiyi təqdirdə təbii ki, məktəblərdə şagird sayı da azalacaq. Məktəblərdə üç, beş və ya 10 nəfərlik siniflər yaranacaq. Azərbaycan dövləti təhsili xalqa icbari formada təqdim edir. Ona görə də düşünürəm ki, əhalinin sayının azalması müəllim ixtisarı ilə nəticələnməməlidir. Digər tərəfdən, bizdə onsuz da bir çox məktəbdə 30-35 nəfərlik siniflər var. Hazırda bir sinif 25 nəfərlə komplektləşir. Biz əvvəlcə bunu 25 olaraq qeyd etmişdiksə, zaman keçdikcə 15-ə endirməliyik. Zatən tədqiqatlar da çox zaman qeyd edir ki, şagird sayı çox olduqda differeansiallaşdırma, individual qayğı, fərdi yanaşma çətin olur. Bu baxımdan, sinifdə şagird sayının az olması, müəllim üçün də, təhsil üçün də yaxşı nəticə verə, təhsilin keyfiyyətini artıra bilər. Biz demoqrafik azalmanı fürsətə çevirə bilərik. Əgər bəzi kənd və qəsəbələrdə şagird sayı düzəlmirsə, o halda məktəblər birləşdirilməli, müəllimlər böyük məktəblərdə işləməyə davam etməlidirlər.

### "AZ RESURSLA ÇOX İŞ GÖRMƏK KEYFİYYƏTİ AŞAĞI SALIR"

**Şagird sayının azalması müəllimlərin dərs bölgüsünə təsir edə, əməkhaqlarının azalmasına səbəb ola bilərmi?**

Təbii ki, şagird sayının azalması bəzi məktəblərdə müəllimlərin dərs bölgüsünə mənfi təsir edəcək. Amma şagird sayını siniflərdə azaltsaq, özəl məktəblər kimi bir sinifdə 15 şagirdin olmasına çalışsaq, onda problem olmayacaq. Az resursla çox iş görmək keyfiyyəti aşağı salır. Bir müəllimlə 30 nəfərə tədris etmək fikrindən daşınmalı, şagird sayını azaltmalı, bir müəllimlə 15-20 şagirdə dərs vermək istiqamətində addım atmalıyıq. Onda dərs sayı azalmayacaq. Nəticədə əməkhaqqı da azalmayacaq. Bu da təhsilin keyfiyyətinin artırılması ilə nəticələnə bilər. Bəzi elmi ədəbiyyatlardan oxuyuruq ki, Çində, Yaponiyada şagird sayı çoxdur, amma tədrisin keyfiyyəti yaxşıdır. Ancaq bunu nəzərə almalıyıq ki, onların ailədən gələn tərbiyə, əxlaq normaları, ənənələri müəllimə qulaqasma yönümlüdür. Onlar sinifdə çox sakit, dərsə qarşı da çox ciddidirlər. Ona görə müəllim bir sinifdə 40 nəfərə dərs keçə bilir. Amma hazırkı dünyada - Cənubi Qafqaz, Avropa və Amerikada şagird sayının azaldılması üçün çalışılır.

> *"Əgər bəzi kənd və qəsəbələrdə şagird sayı düzəlmirsə, o halda məktəblər birləşdiril-məli, müəllimlər böyük məktəblərdə işləməyə davam etməlidirlər."*

### "PEŞƏLƏR ARASINDAKI LİKVİDLİK, AXICILIQ ARTIR"

**Hər il ali məktəblər pedaqoji fakültələrə tələbə qəbulunu artırır. Gələcəkdə müəllim əməyinə ehtiyac azalacaqsa, həmin məzunların taleyi necə olacaq?**

Artıq ali təhsil müəssisələrindəki ixtisaslar simvolik xarakter daşıyır. Həmin ixtisasları seçənlər bilməlidirlər ki, biz artıq bazar iqtisadiyyatına keçmişik. Sovet dövründə deyirdik ki, beş il sonra bizim filan qədər müəllimə ehtiyacımız yaranacaq, universitetlərdə filan qədər tələbə olacaq. İndi isə deyirik ki, universitetlər giriş qapılarını geniş açsın. Nə qədər tələbə gələ bilirsə, cəlb etsin. Gözləntidən uzaqlaşmalıyıq. Müəllim ixtisasına yiyələnənlər tədris kurslarında, bağçalarda və ya fərqli sferalarda işləyə bilərlər. Artıq peşələr arasındakı likvidlik, axıcılıq artır. Bir şəxs müəllim ixtisasından məzun olduğu üçün məcbur deyil ki, mütləq müəllim işləsin. Bunu ali təhsil müəssisəsi deyil, tələbə özü düşün-məlidir.



### "DİSTANT TƏHSİL ƏNƏNƏVİ TƏHSİLİN YERİNİ VERƏ BİLMƏZ"

**Ötən il Azərbaycanda 96 məktəbin fəaliyyəti dayandırılıb. Bu fakt da şagird sayının azalması nəticəsində baş verən problemə diqqət çəkir...**

Rayon yerlərində 3-5 şagirdi olan məktəblər birləşdirilməlidir. Auditoriyaya xitab edən məktəb rentabelli sayıla bilməz. 3-5 nəfərlik məktəbdə təhsil mühitinin də yaxşı qurulması çox çətindir. Az şagird kontingentinə malik məktəblərin fəaliyyətinin dayandırılması gözlənilləndir. Amma bağlanan məktəbin şagirdinə "artıq sənin kəndində məktəb yoxdur, başqa məktəbə getməlisən" deyilməməlidir. Bunu edəriksə, şagirdin təhsil hüququnu əlindən almış oluruq. Bu öhdəliyi valideynə buraxırıqsa, o da "mənim övladımı başqa məktəbə göndərməyə imkanım yoxdur" deyə bilər.

**Necə bilirsiniz, distant təhsil bu boşluğu doldura bilərmi?**

Ucqarlarda yaşayanlar üçün distant təhsil ənənəvi təhsilin yerini verə bilməz. Ona görə də daşımalı təhsili daha uyğun hesab edirik. Türkiyə modelində olduğu kimi şagirdlər dövlət və bələdiyyələr tərəfindən təşkil olunan avtobuslarla məktəbə daşınmalıdır.

### "UŞAQ AZDIR DEYƏ MÜƏLLİMİ DƏ AZALDAQ" YANAŞMASI YOXDUR"

**Bəs xarici ölkələrdə demoqrafik azalmanın təhsilə olan təsirləri necə həll olunur?**

İnkişaf etmiş ölkələrdə məktəblər daha böyük resurslara malikdir. Ona görə də siniflər 15-20 nəfərlə komplektləşir. Məsələn, mən ABŞ-də məktəbdə də, ali təhsil sahəsində də işləyirəm. Siniflərdə 11-13, 25-26 nəfər var. Az şagird sayı ilə də məktəb işinə, müəllim də dərsinə davam edir. "Uşaq azdır deyə müəllimi də azaldaq" yanaşması yoxdur.

**Problemdən çıxış yolunu nədə görürsünüz?**

Hesab edirəm ki, demoqrafik azalmaya görə dövlət müəllimlərin maaşına, dərs yükünə və ya karyerasına təsir etməməlidir. Şagird sayının azlamasını fürsətə çevirmək üçün deməlidir ki, 10 nəfərlə də, 15 nəfərlə də sinif sinifdir, müəllim normal dərs yükü ilə işini davam etməlidir. Müəllimlər də düşünməlidir ki, onlar təkcə təhsil müəssisələrinə möhtac deyillər, başqa yerlərdə də iş axtarmaq mümkündür.

# UŞAQLARDA FİZİKİ TRAVMALARI YARADAN SƏBƏBLƏR

Fiziki travmalar müxtəlif səbəblərdən yaranır və ciddi fəsadların olmaması üçün vaxtında müdaxilə lazımdır. Daha çox rast gəlinən səbəblər yıxılmalar, nəqliyyat və idman zədələridir.



Azyaşlılar arasında sınıq, çıxıq halları ilə bağlı travmatik zədələrə tez-tez rast gəlinir. Bəzən bu cür vəziyyətlərdə tətbiq edilən tibbi prosedurlarla bağlı müəyyən fikir ayrılıqları müşahidə edilir. Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun travmatoloq-ortopedi Nuşrəvan Şahverdiyev uşaqlar arasında sınıq, çıxıq halları ilə bağlı danışıb.

### CƏRRAHİ MÜDAXİLƏ TƏLƏB EDƏ BİLƏR

Travmatoloq-ortoped bildirib ki, uşaqlarda ən çox yuxarı və aşağı ətraflarda sınıq, çıxıq yaranır. Bilək sınıqları əl üzərinə düşmə zamanı yaranır, daha çox zədələnən mil və dirsək sümükləridir. Kiçikyaşlı uşaqlarda sümüküstlüyü qalın olduğuna görə, adətən, bu sınıqlar sümüküstlüyüaltı (subperiostal) olur və az yerdəyişmə ilə müşahidə edilir. Nümunə olaraq, "yaşıl budaq" sınığını göstərmək olar. Yerdəyişmə varsa, sınıq qapalı düzəliş edilərək gips sarğısı ilə fiksasiya olunur. Said sümüklərinin müştərək sınıqlarının müalicəsi də uşağın yaşı az olduqda gips sarğısı ilə aparılır, amma daha böyük yaşlarda yerdəyişmənin xarakterindən asılı olaraq cərrahi müdaxilə tələb edə bilər.

### FİZİKİ TRAVMALARIN ƏN ÇOX MÜŞAHİDƏ EDİLƏN NÖVLƏRİ

Travmatoloq-ortoped uşaqlarda fiziki travmaların ən çox müşahidə edilən növləri barədə məlumat verib: "Uşaq travmaları psixoloji, emosional, fiziki ola və uşağın gələcək inkişafına təsir edə bilər. Fiziki travmalar isə müxtəlif səbəblərdən yaranır və ciddi fəsadların olmaması üçün vaxtında müdaxilə lazımdır. Daha çox rast gəlinən səbəblər yıxılmalar, nəqliyyat və idman zədələridir. Uşaqlar kiçik yaşlarda tarazlıqlarını qoruya bilmədiklərinə görə tez-tez yıxılaraq travma alırlar və bu müxtəlif sınıqlara səbəb olur".



Nuşrəvan Şahverdiyev

## GÜCLÜ VƏ DAVAMLI AĞRI HİSS OLUNUR

Nuşrəvan Şahverdiyev bildirib ki, yuxarı və aşağı ətraf sınıqları ön sıralardadır. Yuxarı ətraf sınıqları çiyin, dirsək və bilək nahiyəsinin travmaları zamanı yaranır və hər nahiyənin yaşa uyğun olaraq fərqli müalicə üsulu var. Dirsək oynağı sınıqlarının müalicəsi daha çox diqqət tələb edir: "Nəqliyyat travmaları yüksək enerjili travmalara aiddir. İdman zədələri isə hər hansı bir fiziki aktivlik zamanı yaranır. Məsələn, güləş zamanı körpücük, dirsək və bilək sınıqlarının rast gəlmə tezliyi digər sümüklərdən çoxdur. Uşaqlarda sınıq olan nahiyədə güclü və davamlı ağrı hiss olunur. Tərpənən zaman ağrılar daha da güclənir. Zədə bölgəsində ödem yaranır və dəri qızara bilər. Bu, toxumaların zədələnməsi və qan dövranının pozulması nəticəsində baş verir. Uşaq sınıq olan nahiyəni hərəkət etdirməkdə çətinlik çəkir və ya tamamilə hərəkət etdirmək istəmir. Yerdəyişmiş sınıqlar zamanı ətrafda deformasiyalar yaranır. Sınıq nəticəsində qan damarları zədələndiyi üçün göyərmələr əmələ gələ bilər. Bəzi hallarda sınıq bölgəsində qeyri-normal hərəkətlilik və ya sümüklərin bir-birinə sürtünməsi hiss oluna bilər ki, buna da krepitasiya deyilir".

## UŞAQLARDA SINIQLARIN UZUNMÜDDƏTLİ TƏSİRLƏRİ

Nuşrəvan Şahverdiyev qeyd edib ki, uşaqlarda sınıqların uzunmüddətli təsirləri travmanın növünə, yerinə, müalicə keyfiyyətinə və uşağın yaşına bağlı olaraq dəyişir. Sümüklər uşaqlıq dövründə daha elastik və sağalma qabiliyyəti yüksək olsa da, bəzi hallarda uzunmüddətli fəsadlar yarana bilər: "Təəssüf ki, sınıq düzgün bitişmədikdə sümük əyrilikləri, ətrafda qısalmalar olur. Oynaqətrafı sınıqlar gələcəkdə erkən artrit və hərəkət məhdudiyyəti yaradır. Böyümə zonasına təsir edən sınıqlar sümüyün qeyri-bərabər böyüməsinə və ya vaxtından əvvəl bağlanmasına səbəb ola bilər ki, bu da gələcəkdə deformasiyalar və travma almış ətrafın sağlama nisbətdə qısa olmasına gətirib çıxarar. Sınıq səbəbindən uzun müddət hərəkətsiz qalmaq əzələ gücünün azalmasına təkan verir. Bəzi sınıqlar damar və sinirlərə təsir edərək həmin nahiyədə qan təchizatının azalmasına və hissiyyat itkisinə səbəb olur. Fiziki məhdudiyyətlər və bərpa prosesi uşaqlarda sosial həyatdan uzaqlaşma və özgüvən problemləri ilə nəticələnə bilər. Bunların qarşısını almaq üçün düzgün ortopedik müalicə və reabilitasiya, fizioterapiya, gücləndirici məşqlər, psixoloji dəstək və motivasiya vacibdir. Erkən diaqnoz və düzgün müalicə ilə uşaqlarda sınıqların uzunmüddətli fəsadlarının qarşısını almaq mümkündür".



# SOCAR EGPC ilə əməkdaşlıq müqaviləsi imzalayıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Misirin Dövlət Neft Korporasiyası (EGPC) arasında əməkdaşlığın əsas istiqamətlərini müəyyən edən çərçivə müqaviləsi imzalanıb. Bu barədə "Report"a SOCAR-dan məlumat verilib.

Bildirilib ki, imzalanma mərasimi 9-cu Misir Beynəlxalq Enerji Konfransı və Sərgisi ("EGYPS 2026") çərçivəsində baş tutub. Tədbirdə enerji təhlükəsizliyi, dayanıqlı inkişaf, bərpaolunan enerji mənbələri və müasir texnologiyaların tətbiqi kimi aktual məsələlər müzakirə olunub.

SOCAR-ın vitse-prezidentinin müavini Vitaliy Bəylərbəyov "EGYPS 2026" çərçivəsində "Qlobal ticarət axınlarının yenidən formalaşdırılması" mövzusunda təşkil olunan panel müzakirələrində çıxış edib. O, çıxışında Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm roldan, bu xüsusda ölkəmizin təşəbbüsü ilə icra olunan enerji layihələrinin, o cümlədən Cənub Qaz Dəhlizinin əhəmiyyətindən bəhs edib.

Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən olan Trans-Adriatik Boru Kəmərinin (TAP) 2020-ci ilin dekabrında tam istismara verildiyini xatırladan vitse-prezidentin müavini bu gün Azərbaycan qazının 10-u Avropa İttifaqının üzvü olmaqla, ümumilikdə 16 ölkəyə tədarük olunduğunu bildirib. 2025-ci ildə Avropa istehlakçılarına təxminən 13 milyard kubmetr Azərbaycan qazı çatdırılıb ki, bu da 2021-ci il ilə müqayisədə təxminən 60% artım deməkdir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 451
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

KİBERHÜCUMLARLA BAĞLI FƏALİYYƏTİN KOORDİNASİYASI ÜÇÜN MƏRKƏZ YARADILACAQ

# KİBERHÜCUMLARA QARŞI MÜDAFİƏ GÜCLƏNDİRİLİR

**Dipfeyk sistemləri insanın üz quruluşunu, mimikasını və səsini analiz edərək həmin məlumatların modelini yaradır və sonra bu modeli başqa görüntünün üzərinə tətbiq edir. Nəticədə elə videolar ortaya çıxır ki, sanki həmin şəxs real olaraq danışır və ya müəyyən açıqlama verir.**





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son illər süni intellekt texnologiyalarının sürətli inkişafı informasiya məkanında yeni risklər yaradıb. Xüsusilə dipfeyk videolar və saxta xəbərlərin yayılması həm ictimai rəyə, həm də dövlətlərin informasiya təhlükəsizliyinə təsir göstərir. Bu səbəbdən bir çox ölkələr kiberhücumlara qarşı rəqəmsal müdafiə mexanizmlərini gücləndirməyə çalışır. Azərbaycanda da bu istiqamətdə yeni addım atılır. Ölkə səviyyəsində kiberhücumlara qarşı dayanıqlı müdafiə, onların nəticələrinin təhqiqatı və aradan qaldırılması fəaliyyətinin koordinasiyası üçün mərkəz yaradılacaq. Bu, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün fəaliyyət planı"nda əksini tapıb.

Bəs bu risklərin artdığı dövrdə informasiya təhlükəsizliyini qorumaq üçün hansı addımlar atılır?

Elektron Təhlükəsizlik Xidmətinin (ETX) mətbuat katibi Elnarə Baxış bildirdi ki, dipfeyk kontentləri əsasən maliyyə dələduzluğu, ictimai rəyə təsir və rəsmi qurumların adından yayılan saxta məlumatlarla bağlı olur: "Bu kimi halların qarşısının alınması məqsədilə aidiyyəti dövlət qurumları, o cümlədən ETX tərəfindən mütəmadi olaraq ictimai məlumatlandırma kampaniyaları, təlimlər və media vasitəsilə müxtəlif maarifləndirici layihələr həyata keçirilir".



Elnarə Baxış

### "KİBERİNSİDENTLƏRLƏ BAĞLI ELEKTRON SÜBUTLARI ETX-YA GÖNDƏRİN"

E.Baxış qeyd edib ki, vətəndaşlar süni intellekt əsaslı dezinformasiyanı müəyyən əlamətlərə diqqət etməklə ayırd edə bilərlər: "Süni intellekt əsaslı dezinformasiyanı tanımaq üçün vətəndaş ilk növbədə gördüyü və ya oxuduğu məlumatın mənbəsinə diqqət etməlidir. Şübhəli vizual və ya videolarda səs və görüntü uyğunsuzluğu, qeyri-təbii mimika, mətnlərdə emosional manipulyasiya və sensasion başlıqlar kimi əlamətlər diqqətə alınmalıdır".

Qurum rəsmisi sonda vurğuladı ki, vətəndaşlar kibertəhlükə, eyni zamanda hər hansı kiberinsidentlə üzləşdikdə və ya metodiki dəstəyə ehtiyac olduqda 1654 qaynar xətti və ya info@cert.az elektron poçt ünvanı vasitəsilə Elektron Təhlükəsizlik Xidmətinə müraciət edə bilərlər.

## HƏDƏFLİ VƏ MÜRƏKKƏB FORMA...

Kibertəhlükəsizlik üzrə ekspert Mehman İsgəndərov deyir ki, son illərdə süni intellekt texnologiyalarının sürətli inkişafı kibərməkanda həm hücum, həm də müdafiə üsullarına ciddi təsir göstərib: "Əgər əvvəllər kiberhücumlar daha çox manual üsullarla və məhdud texniki imkanlarla həyata keçirilirdisə, indi süni intellekt vasitəsilə bu proseslər daha avtomatlaşdırılmış, hədəfli və mürəkkəb formaya düşüb. Məsələn, hücum edən tərəf süni intellekt alqoritmlərindən istifadə edərək böyük həcmdə məlumatı analiz edə və sistemlərdəki zəif nöqtələri daha sürətli müəyyən edə bilir. Bu isə hücumların planlaşdırılmasını və həyata keçirilməsini xeyli sürətləndirir. Eyni zamanda fişinq hücumlarının məzmunu daha inandırıcı hala gəlib. Süni intellekt vasitəsilə hazırlanan elektron məktublar və ya mesajlar real insan ünsiyyət üslubunu təqlid etdiyi üçün istifadəçilər bəzən onların saxta olduğunu müəyyən etməkdə çətinlik çəkirlər".



Mehman İsgəndərov

### DİPFEYK TƏHLÜKƏSİ

Mütəxəssisin sözlərinə görə, son dövrlərdə diqqət çəkən tendensiyalardan biri də səs və video texnologiyalarından istifadə edən hücumlardır: "Məsələn, süni intellekt vasitəsilə yaradılmış saxta səs yazıları ilə şirkət rəhbərlərinin və ya menecerlərin adından maliyyə əməliyyatları tələb edən hallara artıq bir sıra ölkələrdə rast gəlinib. Bununla yanaşı, süni intellekt kibertəhlükəsizlik sahəsində müdafiə imkanlarını da genişləndirir. Müasir təhlükəsizlik sistemləri böyük həcmdə şəbəkə trafikini analiz edərək qeyri-adi davranışları müəyyən edə və potensial hücumları erkən mərhələdə aşkarlaya bilir. Dipfeyk isə süni intellekt və dərin öyrənmə alqoritmləri vasitəsilə saxta video və audio materialların hazırlanmasına imkan verir".

### SAXTA VİDEOLAR NECƏ AŞKARLANIR?

Həmsöhbətimiz bildirir ki, saxta video və ya audio materialların müəyyən edilməsi üçün bir neçə texniki yanaşma mövcuddur: "İlk növbədə materialın texniki xüsusiyyətləri araşdırılır. Faylın metadata məlumatları, yaradılma tarixi və istifadə olunan proqram təminatı kimi texniki göstəricilər analiz olunur. Bu məlumatlar materialın hansı şəraitdə hazırlandığını müəyyən etməyə kömək edə bilər. Bundan başqa, xüsusi proqram təminatları videodakı üz hərəkətlərini, mimikaları və işıq-kölgə uyğunluğunu analiz edir. Dipfeyk videolarda bəzən insan gözünün fərq etmədiyi mikro uyğunsuzluqlar mövcud olur və bu tip alqoritmlər məhz həmin detalları aşkar etməyə çalışır. Eyni zamanda materialın yayıldığı mənbənin araşdırılması da vacibdir".

## Rəqəmsal sübutlar məhkəmədə hansı hallarda qəbul olunur?



Cavid Babayev

Vəkil Cavid Babayev bildirib ki, rəqəmsal sübutlar məhkəmədə yazılı sübut kimi qəbul oluna bilər. Onun sözlərinə görə, bu sübutlar yalnız həqiqiliyi müəyyən edildiyi halda məhkəmədə sübut kimi qəbul edilir: "Əgər sübutlar qanunsuz yolla əldə olunubsa, məhkəmə tərəfindən qəbul edilmir. Praktikada bu o deməkdir ki, rəqəmsal sübutların məhkəmədə dəyər daşıması üçün onların mənbəyi, əldə edilmə üsulu və dəyişdirilmədiyi sübuta yetirilməlidir".

AZƏRBAYCANDA TURİZMİN BEYNƏLXALQ RƏQABƏT QABİLİYYƏTİ GÜCLƏNDİRİLƏCƏK

# TURİZM SEKTORUNDA REAL DƏYİŞİKLİKLƏR OLACAQ

Yaradılması planlaşdırılan Turizm İnkişaf Fondu turizm sektorunun ehtiyac duyduğu maliyyə dəstəyini təmin edə bilər. Fond diqqətçəkən layihələrə qrantlar verməklə yeni turizm obyektlərinin yaradılmasına, mövcud infrastrukturun inkişafına, xidmətlərin keyfiyyətinin yüksəldilməsinə yol açacaq.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda yaradılması nəzərdə tutulan Turizm İnkişaf Fondu gəlmə və daxili turizmin inkişafına hesablanıb. Milli Məclisdə keçirilən “Azərbaycanda turizmin mövcud vəziyyəti və inkişaf perspektivləri” mövzusunda ictimai dinləmədə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev qeyd edib ki, fondun yaradılması turizm xidmətlərinin ixracını artıracaq, yeni iş yerlərinin yaradılmasına şərait yaradacaq. Ən əsası, Azərbaycanın turizm istiqaməti kimi beynəlxalq rəqabət qabiliyyətini gücləndirəcək. Agentlik tərəfindən hazırlanan və uzun illərdir gözlənilən “2026-2030-cu illərdə turizmin inkişafına dair Dövlət Proqramı” isə hazırda qurumlar arasında müzakirə mərhələsindədir. Sənədə əsasən, turizmin sistemli inkişafını təmin etmək üçün əsas prioritet istiqamətlər müəyyən edilib. Bura hədəf bazarlar üçün vizasız rejimin tətbiqi, hava nəqliyyatı ilə sərnişindaşımada qiymət baxımından rəqabət qabiliyyətinin təmin edilməsi, əlverişli fiskal və investisiya mühitinin formalaşdırılması daxildir. Dayanıqlı Turizm İnkişaf Fondunun yaradılması isə bu təklif və planların həyata keçirilməsi üçün baza rolunu oynaya bilər.



Fuad Nağıyev

## “SOSİAL VƏ HUMANİTAR ƏHƏMİYYƏTİ DƏ BÖYÜKDÜR”

İctimai dinləmədə iştirak edən turizmçi Ruslan Quliyev hesab edir ki, Azərbaycanda turizmin inkişafını təmin etmək və turist axını yaratmaq üçün vacib olan addımlar sırasında qanunvericilik bazasının və menecment sisteminin təkmilləşdirilməsi, o cümlədən innovativ sistemlərin şəxəli tətbiqi vacibdir. Prezident yanında Turizmin İnkişafına Dəstək Fondunun yaradılması təklifi də ölkədə turizm sektorunun inkişafını sürətləndirmək, bu sahəni iqtisadiyyatın əsas sahəsinə çevirmək məqsədi daşıyır: “Bunu uzun müddətli deyil, üç illik test müddəti kimi də tətbiq etmək olar. Xaricdə də bu cür təcrübə mövcuddur”.

Ekspert hesab edir ki, fond turizm layihələrinə subsidiya edən qrantlar verə bilər ki, bu da yeni hotellərin və turizm obyektlərinin yaradılmasına, mövcud turizm infrastrukturunun inkişafına, turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə yol açar: “Təbii ki, dövlətin infrastruktur layihələrdə uğurlu iştirakı da turizmin inkişafını şərtləndirən amillər sırasındadır. Yəni burada yol-nəqliyyat imkanlarının yaxşılaşdırılması, turizm zonalarının qurulması, əlavə xidmət sahələrinin artırılması və xarici turistlərin cəlb olunması məqsədi ilə sistemli reklam və marketinq kampanіyaları, beynəlxalq sərgilərdə iştirak sayının artırılması, meqainfoturların həyata keçirilməsi vacibdir. Bunun sosial və humanitar əhəmiyyəti də böyükdür: yeni iş yerləri açılacaq, yerli özünüidarəetmə mexanizmləri təkmilləşəcək, kənd turizmi, ekoturizm inkişaf edəcək, regionların turizmi canlanacaq. Bu sahədə dövlət və özəl sektor əməkdaşlığı da vacib amillərdəndir. Bu, kiçik və orta sahibkarlığın güclənməsinə və investisiya layihələrin daha asan həyata keçirilməsinə şərait yaradacaq. Həm kredit mexanizmləri, həm maliyyə imkanlarına çıxış yolları təkmilləşdiriləcək, həmçinin ölkəyə xarici sərmayənin gəlməsinə şərait yaradacaq”.






## DAVAMLI VƏ MƏQSƏDLİ MALİYYƏ MƏNBƏYİ

Turizmşi Rəhman Quliyev Turizm İnkişaf Fondunun yaradılması üçün vacib olan bir neçə əsas səbəbi sadalayır: “Hazırda turizm layihələrinin böyük hissəsi dövlət büdcəsi və ya ayrı-ayrı proqramlar vasitəsilə maliyyələşir. Fond isə turizm sahəsi üçün davamlı və məqsədli maliyyə mənbəyi yaratmaq məqsədi daşıyır. Azərbaycanın təbiət, mədəniyyət və tarix baxımından böyük turizm imkanları var, lakin bəzi regionlarda infrastruktur zəifdir, turizm xidmətləri kifayət qədər inkişaf etməyib, beynəlxalq tanıtım məhduddur. Fond bu sahələrə xüsusi investisiyaların yönəldilməsinə kömək etməlidir”.

R.Quliyevin sözlərinə görə, hazırda bizdə turizm əsasən Bakı və bir neçə məşhur bölgədə cəmlənib. Fond vasitəsilə digər regionlarda da turizm layihələri, kənd və ekoturizm, yeni marşrutlar və s. dəstəklənə bilər: “Bir çox ölkələrdə turizm fondları turizm vergiləri, hotellərdən yığılan rüsumlar, dövlət vəsaitləri hesabına formalaşır və sahənin inkişafına yönəldilir”.



Ruslan Quliyev

## “KADR HAZIRLIĞI, TƏLİM PROQRAMLARI DA MALİYYƏLƏŞDİRİLƏ BİLƏR”

R.Quliyevin fikrincə, fond fəaliyyətə başlasa, turizm sektorunda real dəyişikliklər olacaq: “Fond yeni turizm obyektlərinə, kurort zonalarına, ekoturizm layihələrinə qrant verə və ya investisiya mexanizmləri təklif edə bilər. Digər vacib amil Azərbaycanın turizm brendinin fond vasitəsi ilə gücləndirilməsidir. Məsələn, fondun xətti ilə beynəlxalq reklam kampaniyaları, sərgilərdə iştirak, ölkəmizin turizm imicinin tanıdılması kimi mühüm layihələr həyata keçirilə bilər”.



Rəhman Quliyev

R.Quliyevin fikrincə, turizm xidmətlərinin keyfiyyətinin artırılması, kadr hazırlığı, təlim proqramları kimi sahələr də fond tərəfindən maliyyələşdirilə bilər.

## “BU SAHƏYƏ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİ VACİBDİR”

Turizmçi Əfsun Əhmədovun fikrincə, fondun yaranması ilə prioritet istiqamətlərdə əməli işlərin görülməsi planlaşdırılır: “Bilirik ki, son dövrlərdə qonşu ölkələrlə müqayisədə turizmdən ən az gəlir əldə edən bizim ölkədir. Bu tendensiyanın dəyişməsi, ölkəmizə marağın daha da artırılması, turizm sektorunun inkişafı üçün bu sahəyə investisiyaların cəlb edilməsi vacibdir”.



Əfsun Əhmədov

DÜNYADA ƏRZAĞIN UCUZLAŞMASI İDXALÇI ÖLKƏLƏRDƏ TƏSİRİNİ DƏRHAL GÖSTƏRMİR

# DÜNYADA ƏRZAQ QİYMƏTLƏRİ UCUZLAŞIR



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Dünyada ərzağın qiymətində son aylarda azalma qeydə alınır. Lakin bu amil daxili bazarımızda hiss edilmir. Ekspertlər bunu həm daxili, həm də xarici amillərlə əlaqələndirirlər.



Birləşmiş Millətlər Təşkilatının Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən açıqlanan Ərzaq Qiymətləri İndeksi 2026-cı ilin yanvar ayında süd məhsulları, ət və şəkər qiymətlərinin azalması səbəbindən ardıcıl beşinci ay davamlı şəkildə düşüb. FAO Ərzaq Qiymətləri İndeksi 2026-cı ilin yanvar ayında orta hesabla 123,9 bənd təşkil edib ki, bu da dekabr ayı ilə müqayisədə 0,5 bənd (0,4 faiz) azdır. Süd məhsulları, ət və şəkər üzrə qiymət indekslərində azalma taxıl və bitki yağları üzrə artımları üstələyərək indeksin ardıcıl beşinci aylıq azalmasını təmin edib.

Qlobal ərzaq qiymətləri azalırsa, niyə bu eniş Azərbaycan bazarında hiss olunmur? Bu azalma yaxın aylarda daxili bazarda real ucuzlaşmaya çevrilə bilərmi?

### "UCUZLAŞMA DAVAM ETSƏ, YERLİ BAZARDA TƏSİRİNİ GÖSTƏRƏCƏK"

İqtisadçı-ekspert Eyyub Kərimli "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, hazırda dünyada bəzi ərzaq məhsulları üzrə baş verən ucuzlaşma digər idxalçı ölkələrdə dərhal öz təsirini göstərmir. Bu, əsasən müqavilələrin daha öncədən bağlanması və stoklamanın əvvəlcədən həyata keçirilməsi ilə bağlıdır: "Sözsüz ki, ucuzlaşma davam etsə, bu, öz əksini yerli bazarda idxal olunan məhsullarda tapmalıdır. Lakin ucuzlaşma yalnız xaricdən idxal olunan məhsullara aid ola bilər. Çünki bəzi ərzaq məhsulları özümüzdə istehsal olunur və onların qiymətində ucuzlaşma baş vermir. Digər tərəfdən, hazırda bəzi məhsullarda qiymət artımı logistika və nəqliyyat xərclərinin yüksəlməsi ilə bağlıdır. Həmçinin gömrük rüsumları və gömrük əməliyyatlarında gecikmələr də əlavə xərclər yaradır. Bu səbəblərdən ucuzlaşmanın təsiri bazarda bir müddət sonra özünü göstərir".



Eyyub Kərimli

## Mürəkkəb və uzunmüddətli proses

Ekspert bildirir ki, gündəlik qiymətlərin formalaşmasında bir sıra amillər öz rolunu oynayır. Onun sözlərinə görə, gələcəkdə bəzi məhsullarda müəyyən dövlət güzəştlərinin tətbiqi mümkündür: "Məsələn, rüsumların müvəqqəti endirilməsi və xərclərin azaldılmasına yönəlmiş subsidiyalar bəzi hallarda dəstək rolunu oynaya bilər. Hazırda ölkəmizə əsasən qlobal ticarətdə çıxış payı olan məhsullar buğda və buğda məhsulları, şəkər, bitki yağları, qəhvə və çaydır. Bu kateqoriyalarda qiymətlər bəzən volatilliyə malik olur, yəni ucuzlaşma ilə yanaşı, bir neçə ay sonra qiymət artımı da ola bilər. Bu baxımdan, qiymətlərin sabitləşməsi mürəkkəb və uzunmüddətli prosesdir".

### "BAZARDA TƏNZİMLƏMƏLƏRİN HƏYATA KEÇİRİLMƏSİ ZƏRURİDİR"

E.Kərimli vurğulayır ki, ucuzlaşmanın yerli bazarda hiss olunması üçün rəqabət mühitinin liberallaşması böyük əhəmiyyət kəsb edir: "Eyni zamanda, təchizat zəncirinin şaxələndirilməsi vacibdir. Məhsulların bir ölkədən yox, bir neçə ölkədən idxal edilməsi problemi kökündən həll edə bilər. Digər tərəfdən, bəzi hallarda inflyasiya sahibkarları əlavə marja əldə etməyə sövq edir və süni qiymət artımları da bazarda rol oynayır. Bu səbəbdən, daha ciddi tənzimləmələrin həyata keçirilməsi zəruridir".



Xalid Kərimli

### "Dövlətin tənzimləyici alətləri ucuzlaşmaya səbəb ola bilməz"

İqtisadçı-ekspert Xalid Kərimli isə deyir ki, hazırkı vəziyyətdə dövlətin tənzimləyici alətləri ucuzlaşmaya səbəb ola bilməz: "Çünki Tarif Şurası qiymətləri artıran addımlar atıb. Bunun nəticəsində kommunal xərclərdə də artımlar müşahidə olundu. Bütün bunlar sahibkarların xərclərini artırır. Yəni Tarif Şurasının son dövrlər qərarları qiymət endirimi deyil, qiymət artımı istiqamətindədir. Dövlətin tənzimləyici alətlərinin təsiri isə artıq subsidiya və digər mexanizmlər vasitəsilə bazara ötürülüb. Yəni, bu məsələlərin bazarda hər hansı tənzimləyici rolu qalmayıb".

### "EYNİ MƏHSULLARI 2024-CÜ İLLƏ MÜQAYİSƏDƏ 26% DAHA BAHA ALMIŞIQ"

İqtisadçı deyir ki, 2026-cı il üçün keçən ilki səviyyədə inflyasiya proqnozlaşdırır. Həm Mərkəzi Bank, həm də hökumətin proqnozlarında inflyasiya nəzərdə tutulub: "Burada ikinci əsas məsələ odur ki, inflyasiya əsasən ölkəmizə ticari tərəfdaşlarımız vasitəsilə ötürülür. Məsələn, Türkiyə bizim əsas ticarət tərəfdaşımızdır, həmçinin Rusiya, Avropa ölkələri, İran və Çin. Yəni qiymət artımı birbaşa həmin ölkələrdən idxal olunan məhsullara təsir edir. Keçən ilin statistikasına görə, 2025-ci ildə kənd təsərrüfatı məhsullarının idxal qiymətləri indeksi 26% artıb, yəni eyni məhsulları 2024-cü illə müqayisədə 26% daha baha almışıq".

### "VƏTƏNDAŞ UCUZLAŞMANI HİSS ETMƏYƏCƏK"

Mütəxəssis vurğulayır ki, vətəndaş ucuzlaşmanı hiss etməyəcək: "Gömrük rüsumları və vergilərin artımı qiymətlərin enməsinin qarşısını alır. Məsələn, telefonların gömrük rüsumları artırılıb, spirtli içkilərdə aksiz vergiləri yüksəldilib. Daha sonra telefonlara aksiz tətbiq edilib. Eyni zamanda, maşınlar üçün mövcud olan ƏDV güzəştləri ləğv olunub. Nəticədə, bazarda qiymətlərin azalması mümkün deyil, əksinə, qiymətlər yüksələcək. Vətəndaş bu ucuzlaşmanı hiss etməyəcək, çünki gündəlik qiymət enişi üçün bazarda hər hansı mexanizm yoxdur".

# SƏRNİŞİNLƏR ÜÇÜN GÖRÜNMƏYƏN TƏHLÜKƏ

Cibgirlər adətən üst geyiminin çöl hissəsində olan açıq cibləri hədəf seçirlər. Xüsusilə xanımlara çantalarını bağlı saxlamaları və izdihamlı yerlərdə göz önündə tutmaları tövsiyə olunur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Son günlər Bakıda ictimai nəqliyyatda baş verən cibgirlik hadisələri bu problemi yenidən gündəmə gətirib. Daxili İşlər Nazirliyi marşrut avtobuslarından birində baş verən cibgirlik faktı ilə bağlı məlumat və görüntülər yayıb. Məlumata görə, sərnişinin içərisində 200 manat olan pul kisəsini oğurlamaqda şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 44 yaşlı şəxs saxlanılıb. Elə həmin gün metro stansiyalarının birində də oxşar hadisə qeydə alınıb və sərnişinin çantasından pul kisəsi ilə yanaşı mobil telefonunun oğurlandığı bildirilib. Son illərdə cibgirlik halları nisbətən azalmış kimi görünsə də, xüsusilə sıxlıq müşahidə olunan ictimai nəqliyyat vasitələrində bu problemin yenidən aktuallaşması narahatlıq doğurur. Bu baxımdan, ictimai nəqliyyatda cibgirlik halları, onların qarşısının alınması və vətəndaşların özlərini necə qorumalı olduqları yenidən müzakirə mövzusuna çevrilib.

### "OĞURLUQ KİMİ QİYMƏTLƏNDİRİLİR"

Vəkil Ceyhun Cəfərlinin sözlərinə görə, cibgirlik dedikdə oğurluq cinayəti başa düşülür. Cinayət Məcəlləsində ayrıca "cibgirlik" adlanan cinayət əməli nəzərdə tutulmayıb: "Cinayət Məcəlləsinin 177.1-ci maddəsinə əsasən oğurluq, yəni özgəsinin əmlakını gizli olaraq talama cinayət sayılır və buna görə cəza nəzərdə tutulub. Bu əmələ görə 160 saatdan 480 saata qədər ictimai işlər, iki ilə qədər azadlığın məhdudlaşdırılması və ya iki ildən üç ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq edilə bilər. Bu cəzalar alternativ xarakter daşıyır və cəza fərdiləşdirilərkən məhkəmə cinayətin xarakterini, cinayəti törədənin şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq həmin cəzalardan birini seçə bilər".

## "TOXUNMANIN ADİ QARŞILANDIĞI MÜHİTLƏRDƏN İSTİFADƏ EDİRLƏR"

C.Cəfərli bildirir ki, cibgirlik oğurluğun xüsusi bir formasıdır və adətən qapalı binalara daxil olmaqla törədilən oğurluqdan fərqlənir. Bu cür cinayətlər daha çox küçələrdə, ictimai yerlərdə və insanların sıx toplaşdığı məkanlarda baş verir: "Cibgirlər əsasən insanların ciblərindən, çantaların içərisindən pul və digər əşyaları hiss etdirmədən götürürlər. Belə hallar daha çox ictimai nəqliyyatda, metro stansiyalarının giriş-çıxışlarında, eləcə də insanların növbə gözlədiyi və sıx toplaşdığı yerlərdə müşahidə olunur. Cibgirlər məhz insanların bir-birinə toxunmasının adi qarşılandığı mühitlərdən istifadə edirlər. Adi halda hər hansı vətəndaş ona kimsə toxunduqda dərhal reaksiya verə bilər. Lakin sıxlıq olan yerlərdə bu toxunuşlar normal qəbul edildiyi üçün insanlar buna xüsusi diqqət yetirmir. Cibgirlər də məhz bu psixoloji vəziyyətdən istifadə edərək qurbanlarına yaxınlaşır və əşyaları gizli şəkildə götürürlər".



Ceyhun Cəfərli

### "AÇIQ CİBLƏRİ HƏDƏF SEÇİRLƏR"

Vəkil bildirib ki, bu cür halların qarşısını almaq üçün vətəndaşların diqqətli olması vacibdir: "Tövsiyə olunur ki, zərurət olmadıqca üzərlərində iri məbləğdə pul və ya bahalı zinət əşyaları gəzdirməsinlər. Həmçinin pul və digər qiymətli əşyaların geyimin iç tərəfində yerləşən, bağlanan ciblərdə saxlanılması daha təhlükəsiz hesab olunur. Çünki cibgirlər adətən üst geyiminin çöl hissəsində olan açıq cibləri hədəf seçirlər. Xüsusilə xanımlara çantalarını bağlı saxlamaları və izdihamlı yerlərdə göz önündə tutmaları tövsiyə olunur. Sıx məkanlarda çantanın nəzarətsiz saxlanılması cibgirlər üçün daha əlverişli şərait yarada bilər".

C.Cəfərli qeyd edib ki, hadisə baş verdikdə vətəndaşların dərhal hüquq-mühafizə orqanlarına müraciət etməsi vacibdir: "Tövsiyə olunur ki, insanlar sıx məkanlardan çıxan kimi öz əşyalarını yoxlasınlar və hər hansı oğurluq halı aşkar olunarsa, dərhal polisə məlumat versinlər. Hadisənin baş verdiyi yer barədə dəqiq məlumat verilməsi cinayətkarların müəyyən edilərək məsuliyyətə cəlb olunmasına kömək edə bilər. Bu cür cinayətlərin tamamilə aradan qaldırılması çətin olsa da, profilaktik tədbirlər və vətəndaşların diqqətli davranışı bu halların azalmasına kömək edə bilər".



Elmar Nurəliyev

## KİMLƏR DAHA ÇOX HƏDƏFƏ ÇEVRİLİR?

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev isə bildirib ki, cibgirlər təkcə ictimai nəqliyyatda deyil, insanların daha çox cəmləşdiyi müxtəlif məkanlarda fəaliyyət göstərirlər. Bu məkanlara parklar, ticarət mərkəzləri, avtovağzallar və insanların toplu şəkildə olduğu digər ərazilər daxildir: "Cibgirlər hədəf seçərkən müxtəlif üsullardan istifadə edirlər. Adətən üzərindəki çantanı və ya qiymətli əşyaları – mobil telefon, pulqabı, qızıl-zinət əşyaları və ya pul vəsaitini diqqətçəkən və nəzarətsiz şəkildə daşıyan şəxslər onların diqqətini daha çox cəlb edir".

E.Nurəliyevin sözlərinə görə, vətəndaşların diqqətli davranması vacibdir: "Əgər mobil telefon şalvarın və ya gödəkcənin yan və arxa cibində açıq şəkildə saxlanılırsa və ya çanta nəzarətsiz vəziyyətdə daşınırsa, bu cibgirlərin diqqətini cəlb edə bilər, həmin şəxsin hədəf seçilməsi ehtimalını artırar".

### "TƏKBAŞINA MÜDAXİLƏ ETMƏYİN"

Ekspertin fikrincə, əgər şəxs cibgirliklə üzləşdiyini və ya belə bir cəhdin olduğunu hiss edərsə, ilk növbədə vəziyyəti düzgün qiymətləndirməlidir. Təhlükəsizlik baxımından dərhal fiziki qarşıdurmaya girmək hər zaman məqsədəuyğun hesab olunmur: "Belə hallarda yaxınlıqda polis əməkdaşı varsa, ona məlumat vermək və ya ətrafdakı insanların diqqətini cəlb edərək kömək istəmək daha doğru addım sayılır. Nəzərə almaq lazımdır ki, cibgirlər bəzən tək olmaya bilər və ifşa olunduqlarını hiss etdikdə qarşı tərəfə zərər yetirmək ehtimalı da yaranır. Bu səbəbdən belə vəziyyətlərdə əsas məsələ şəxsi təhlükəsizliyin qorunmasıdır".

Daxili İşlər Nazirliyindən bildirilib ki, vətəndaşlar ictimai nəqliyyatda olarkən diqqətli olmalı, şəxsi əşyalarını nəzarətdə saxlamalı və sıxlıq olan yerlərdə ehtiyatlı davranmalıdırlar.

# İTALİYA RİVİERASININ İNCİSİ





Beş kəndi birləşdirən Çinkve Terredə avtomobildən istifadə qadağandır. Yaşayış məntəqələri arasında yalnız bərə, qatar və ya mənzərəli cığırlarla piyada səyahət etmək olar. Bölgə gözəl mənzərələri, dar cığırları, üzüm bağları və rəngli evləri ilə məşhurdur.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Çinkve Terre möhtəşəm gözəlliyi və rahat həyat tempi ilə məşhurdur. İtaliyanın bu milli parkı “Beş torpaq” kimi tanınır və Liquriya sahillərində ən çox ziyarət edilən turistik məkandır. Beş kəndin - Monterosso, Vernazza, Kornilya, Manarola və Riomaggioreni birləşdirən İtaliya rivierasının bu hissəsi 1997-ci ildən UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxildir. Yerli sakinlər hesab edirlər ki, bu qərarın müsbət təsiri var. Yerli sakinlərin həyat tərzi dəyişib və mənzərə toxunulmaz qalıb.

Burada avtomobillərlə səyahət etmək qadağandır, ona görə də yaşayış məntəqələri arasında yalnız bərə, qatar və ya mənzərəli cığırlarla piyada səyahət etmək olar. Bölgə gözəl mənzərələri, dar cığırları, terraslı üzüm bağları və rəngli evləri ilə məşhurdur.

Çinkve Terre binalarının əksəriyyəti orta əsrlərə aiddir. Hazırda milli parkı təşkil edən kəndlər XI əsrdə salınıb. Sakinləri sivilizasiyanın bütün əsas imkanlarından istifadə etsələr də, yaşayış məntəqələri əsrlər boyu az dəyişib.

## RƏNGLİ EVLƏR, DAĞLARDA DUMAN, MAVİ DƏNİZ...

Çinkve Terre kəndlərinin hər biri inanılmaz mənzərələri və sehrli balıqçılıq atmosferi ilə məşhurdur və bura gələn insanları sənət əsəri kimi ovsunlayır. Parlaq rəngli, terraslı evlər, dağlarda qalın, sıx duman və mavi dəniz bölgənin əsas gözəlliyidir.

Terraslarda zeytun, limon və üzüm yetişdirilir. Bəzi üzüm bağları inanılmaz dərəcədə dik yamaclarda yerləşir. Çinkve Terre ümumiyyətlə, gözəl ağ şərabları ilə məşhurdur. Yerli əhali balıqçılıqla da məşğul olur. Buradakı evlər balıqçıların özləri tərəfindən müxtəlif rənglərə boyanıb. Səbəb də budur ki, balıqçılar gecə vaxtı evlərini asanlıqla tapa bilsinlər.

## HƏR İL TƏXMİNƏN ÜÇ MİLYON TURİST

Hər il bu milli parkı təxminən üç milyon turist ziyarət edir. La Speziaya şəhərində qatara minib İtaliya nağılını görməyə yollanırıq. Stansiyadakı bilet kassasında 17 avroya bir günlük kombo biletlər satılır. Biletə gün ərzində bütün beş kənd arasında qatar səyahəti daxildir. Kəndlərarası məsafə 3-5 dəqiqədir. Qiymət olduqca münasibdir. Amma bəlkə də bu kəndlərə səyahətin ən yaxşısı yolu piyada getməkdir. Çünki kəndlər arasındakı piyada gediş-gəliş ən tənbəl turisti də yormur.



## ŞƏRABI, ÇINQIL ÇİMƏRLİYİ İLƏ MƏŞHURDUR

Riomaggiore milli parkın ən böyük kəndidir. Turistlər Çinkve Terre səyahətlərinə adətən bu kənddən başlayırlar. Kənd özünəməxsus şərabı, kiçik, cazibədar çınqıl çimərliyi və marinası ilə məşhurdur. Parka giriş pulsuzdur. Riomaggiore ilə mənzərəli “Sevgi yolu” (Via dell’Amore) ilə birləşən Manarola quldurlara qarşı tikilmiş, qorunub saxlanılan orta əsr müdafiə strukturları ilə maraq doğurur.

Vernazza milli parkın ən romantik kəndi sayılır. Burada Belforte qülləsinə və Doria qalasına, qalereyaları olan saraya piyada gedə, Antioxiya Santa Marqarita kilsəsinə və Qara Madonna məbədinə baş çəkmək məsləhətdir.




## ƏN ÇOX FOTO ÇƏKİLƏN KƏND

Manarola Çinkve Terredəki ən çox fotoşəkil çəkilən kənddir. Dik qayalıqlara yapışan rəngarəng evlər, balıqçı qayıqları olan kiçik liman, təpələrə ucalan üzüm bağları və firuzəyi dəniz şəkilli açıqcaya bənzər bir mənzərə yaradır. Bu mənzərələr daim sənətçi və ədəbiyyat adamlarına ilham verib. Manarolada ənənəvi çimərlik yoxdur, lakin qayalıqlarda təbii üzgüçülük sahəsi var. Platformalardan və qayalıqlardan dənizə dalmaq həm yerli sakinlər, həm də turistlər arasında populyar bir fəaliyyətdir. Kornilya milli parkın ən kiçik kəndidir. Digər şəhərlərdən əsas fərqi dəniz səviyyəsindən təxminən 100 metr yüksəklikdə yerləşməsidir. Çinkve Terrenin digər kəndlərindən fərqli olaraq Kornilyada həyat daha çox quruya və kənd təsərrüfatına bağlıdır. Marşrutun sonunda parkın ən böyük kəndi olan Monterosso yerləşir. Burada parkın ən böyük çimərliyini, Neptunun nəhəng heykəlini və kəndi köhnə və yeni məhəllələrə bölən Aurora qülləsini də görə bilərsiniz. Neptunun 14 metr hündürlüyündəki beton heykəli 1910-cu ildə Fegina çimərliyinin kənarında ucaldılıb. Neptun çiyinlərində rəqs səhnəsi kimi istifadə edilən nəhəng dəniz qabığı tutur. İkinci Dünya müharibəsi zamanı heykələ sahib olan Pastin ailəsinin mülkünə də bombalar düşüb və heykəl ciddi ziyan çəkib. 1966-cı ildə fırtına zamanı dalğalar da heykələ zərər verməyə davam edib. Lakin sonradan heykəl qismən bərpa olunub. Bu kənd ərazinin sıx məskunlaşmış yaşayış massividir. Milli park il boyu açıqdır. Yağışlı günlərdən və izdiham riskindən qorunmaq üçün buranı aprel-may və sentyabr-oktyabr aylarında ziyarət etmək məsləhətdir. 2026-2027-ci illər üçün Çinkve Terre ziyarətçi məhdudiyyətləri tətbiq edib. Parkda turistlərin daim artması səbəbindən mümkün məhdudiyyətlər xeyli vaxtdır müzakirə olunur. 2017-ci ildə cığır xəritəsi olan mobil tətbiq yaradılıb. Gələcəkdə pullu cığırlar üçün virtual növbənin yaradılması planlaşdırılır. Ancaq bu məhdudiyyət yalnız pullu cığırlara şamil ediləcək.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
4 APREL ŞƏNBƏ 2026
www.kaspi.az

**Azərbaycan yığması əzmkarlıq və xarakter nümayiş etdirərək "FIFA Series" turnirinin qalibi adını qazanmağı bacardı. Komandamız bu turnirdə tarixində ilk dəfə bir oyunda altı qol vuraraq, beş top fərqi ilə qələbə də qazandı.**





# BU DƏFƏ SEVİNDİRDİLƏR



Futbol üzrə Azərbaycan milli komandası 2026-cı ilə titulla başladı. Yığmamız "FIFA Series"in qalibi oldu. Sumqayıtda təşkil olunan miniturnirdə Ayxan Abbasovun rəhbərlik etdiyi kollektiv Sent-Lusiya və Syerra Leone ilə qarşılaşmalarda üstün olaraq kuboku başı üzərinə qaldırdı.

### "FIFA SERİES" NƏDİR?

Bu yarış FIFA tərəfindən təşkil olunan və iki ildən bir keçirilən dəvətli futbol turniridir. Müxtəlif konfederasiyalara məxsus milli komandalar arasında yoldaşlıq oyunlarını əhatə edən turnir hər cüt ilin mart ayında baş tutur. Onun ilk buraxılışı 2024-cü ilin martında keçirilib.

Turnir çərçivəsində dünyanın bütün altı FIFA konfederasiyasını təmsil edən komandalar bir araya gətirilir. Yarışlar mini-turnir formatında təşkil olunur. Hər qrupda üç və ya dörd komanda iştirak edir və oyunlar FIFA-nın mart ayı üçün nəzərdə tutulmuş rəsmi pəncərəsində, mərkəzləşdirilmiş bir məkanda keçirilir. FIFA iştirakçı milli komandalara maliyyə dəstəyi göstərir və ev sahibi assosiasiya ilə birlikdə təşkilati prosesləri birbaşa həyata keçirir.

"FIFA Series" artıq ikinci dəfə ölkəmizdə təşkil olundu. 2024-cü ildə Tanzaniya, Monqolustan və Bolqarıstanla mübarizədə komandamız bir qələbə və bir heç-heçə ilə çıxışını başa vuraraq yekunda bolqarların ardınca ikinci yeri tutmuşdu. Bu dəfə isə yığmamız daha inamlı performans sərgiləyərək turniri qələbə ilə tamamladı və titula yiyələndi.

## Ən böyük hesablı qələbə

"FIFA Series" Azərbaycan milli komandasının tarixində ən böyük hesablı qələbə ilə də yadda qaldı. Bu uğur Sent-Lusiya ilə qarşılaşmada qeydə alındı. Hazırda dünya reytinqində 168-ci pillədə qərarlaşan Karib hövzəsi təmsilçisinə qarşı oyunda millimiz 6:1 hesablı parlaq qələbə qazandı.Görüşə sürətli başlayan komandamız artıq ikinci dəqiqədə Emin Mahmudovun qolu ilə hesabı açdı. İlk hissənin sonuna qədər Rəhim Sadıxov və Musa Qurbanlı fərqi üç topa çatdıraraq oyunun taleyini böyük ölçüdə həll etdilər.

Fasilədən sonra da hücumların ardı-arası kəsilmədi. İkinci yarıda Toral Bayramov, Vüsal İsgəndərli və Rüstəm Əhmədzadə də adlarını tabloya yazdıraraq hesabı daha da böyütdülər.

Rəqib isə yalnız Donavan Philipin penaltidən vurduğu təsəlli qolu ilə fərqlənə bildi.

Beləliklə, milli komandamız tarixində ilk dəfə bir oyunda altı qol vuraraq, beş top fərqi ilə qələbə qazandı. Buna qədər ən böyük hesablı uğurumuz 2017-ci ildə San-Marino ilə görüşdə qeydə alınmışdı. Həmin vaxt komandamız dünya çempionatının seçmə mərhələsi çərçivəsində Bakıda keçirilən oyunda 5:1 hesablı qələbəyə sevinmişdi.

## Kubok qazandıran penaltilər

Həlledici qarşılaşmada rəqib daha güclü idi. Hər halda, Syerra Leoneni Sent-Lusiya ilə müqayisə etmək düzgün olmaz. Rəqib FIFA reytinqində də millimizdən daha yüksək pillədə qərarlaşıb.

Final görüşünün ilk hissəsi milli komandamızın planlaşdırdığı ssenari üzrə keçmirdi. Bunun məntiqi nəticəsi kimi hələ yarım saat tamam olmamış Daniel Kanu rəqibi hesabda irəli çıxardı. Qoldan sonra yığmamızın təşəbbüsü ələ almaq üçün imkanları olsa da, fasiləyə qədər tarazlığı bərpa etmək mümkün olmadı.

İkinci hissədə oyun tamamilə dəyişdi. Ayxan Abbasovun rəhbərlik etdiyi kollektiv hücumların sayını, sürətini və kəsərini artıraraq rəqib qapısı qarşısında təzyiqi yüksəltdi. Bu təzyiq 72-ci dəqiqədə öz bəhrəsini verdi. Mərkəz müdafiəçimiz Rahil Məmmədov akrobatik tullanışla vurduğu baxımlı qolla hesabı bərabərləşdirdi.

Turnirin formatına əsasən, oyunda mütləq qalib müəyyənləşdirilməli olduğundan 90 dəqiqə başa çatdıqdan dərhal sonra penaltilər seriyasına keçildi. Gərgin və uzun çəkən seriyanın sonunda millimiz 9:8 hesabı ilə üstün oldu. Beləliklə, Azərbaycan yığması əzmkarlıq və xarakter nümayiş etdirərək "FIFA Series" turnirinin qalibi adını qazanmağı bacardı.

## "Yeni yolun başlanğıcı"

Komandamızın turnirdə qazandığı nəticə azarkeşləri iki yerə bölüb. Bəzi futbolsevərlər rəqiblərin səviyyəsini əsas gətirərək bu uğuru ciddi hesab etmirlər. Lakin düşünürük ki, yığmanın keçirdiyi oyunlar və əldə olunan nəticə komanda üçün kifayət qədər faydalı olub. Uzunmüddətli qələbəsizlik seriyasının qırılması, futbolçuların yoxlanılması və FIFA reytinqinə təsir bu baxımdan diqqət çəkən məqamlardandır.

Ən önəmlisi isə Ayxan Abbasovun demək olar ki, dəvət etdiyi bütün futbolçulara şans verməsidir. Mütəxəssis kimlərin potensialını artırmalı olduğunu, kimlərin isə milli üçün yetərincə faydalı olmadığını əyani şəkildə görmək imkanı qazandı. Millətlər Liqası oyunları ərəfəsində bu, xüsusi əhəmiyyət daşıyır. Digər tərəfdən, rəqibin kimliyindən asılı olmayaraq hər qələbənin və hər titulun öz dəyəri var. Bu, ilk növbədə qalib psixologiyasının formalaşması və komandada özünəinamın artması baxımından vacibdir.

AFFA-nın baş katibi Cahangir Fərəcullayev də turnirdən sonra verdiyi açıqlamada qələbənin kiçildilməsinin düzgün olmadığını vurğulayıb və bunu "yeni yolun başlanğıcı" kimi dəyərləndirib.